Введение. В настоящее время довольно широко используются разомкнутые двухконтурные системы охлаждения, которые предусматривают потребление воды из окружающей акватории. К сожалению, данные системы не всегда обеспечивают требуемую надежность эксплуатации [1]. Помимо этого, оказывается существенное отрицательное антропогенное воздействие на биологические ресурсы морей и океанов [2]. Потребляемая морская вода содержит планктон и рыбную молодь, которые, пройдя через насосы, фильтры, арматуру и теплообменники, практически полностью погибают под воздействием теплового и механического факторов.

Решение может быть найдено в широком внедрении замкнутых систем охлаждения, исключающих прием забортной охлаждающей воды. Важнейшим элементом таких систем является конечное устройство теплоотвода (КУТ) в воду. Оно должно быть достаточно простым конструктивно, надежно в эксплуатации и иметь минимальные массогабаритные показатели. Для внедрения замкнутых систем охлаждения необходимо достоверные методики их теплотехнического расчета, учитывающие специфику конструкции и особенностей происходящих процессов.

Основная часть. Различные типы морских платформ предусматривают те или иные возможности относительно возможной конструкции КУТ. Для малоподвижных и стационарных объектов (стационарные платформы, самоподъемные платформы и т.д.) могут быть применены такие устройства, выполненные в виде одиночной пластины или их набора (рис. 1).

Пластины выполнены полыми. Внутри пространства сформирован лабиринтный канал, по которому движется охлаждаемая пресная вода (рис. 2).




Рис.1. *Схема размещения КУТ на морской платформе: 1 - морская платформа; 2 - энергетическая установка; 3 - КУТ*





Рис. 2. *Схема пластинчатого КУТ: 1 - КУТ с одиночной пластиной; 2 - КУТ с несколькими пластинами; 3 - лабиринтный канал внутри пластины; 4 - зазор между пластинами; 5 - трубопроводы подвода и отвода охлаждаемого теплоносителя*

Наиболее простой конструкцией является КУТ с одиночной пластиной. С обеих сторон обеспечиваются наилучшие условия теплоотдачи в забортную воду. Устройство при необходимости сравнительно легко очищается от обрастателей (мидии, болянус и др.).

Хорошо известно, что на глубинах 30...50 м независимо от сезона температура морской воды равна 8...10°С [1]. При размещении КУТ на таких глубинах достигается более высокий температурный напор в устройстве, что неизбежно снижает его габариты.

Поскольку лабиринтный характер течения пресной воды внутри такого устройства создает на внутренней и наружной поверхностях теплопередающих стенок специфические граничные условия, то требуется проведение специальных исследований.

Первоначально были выполнены визуальные исследования течения жидкости в зазоре между пластинами. Экспериментальная модель состояла из двух пластин с лабиринтным каналом внутри, по которому двигалась горячая вода. Соответствующие результаты представлены на рисунке 3. Наглядно видно, что изменение температурного напора между поверхностью пластины и водой в $\Delta t = t_{ж} - t_{з}$, а так же величины зазора существенно влияет на характер течения, что соответствующим образом сказывается на эффективности теплоотвода.



а *б*

Рис. 3. *Визуализация течения жидкостей в зазоре (120мм и 40мм) между пластинами КУТ в условиях свободной конвекции:*
а) – Δt = 5° С*; б)* – 15° С*;*

Для определения тепловой эффективности таких устройств была создана экспериментальная модель, состоящая из пластин высотой 0,9м шириной 0,5м. Исследования проводились как на одиночной пластине, так и на двух пластинах, расположенных с некоторым зазором (рис.4).

В результате проведенных экспериментов определена эффективность процессов теплоотдачи как на внутренней, так и на наружной поверхностях теплопередающей стенки устройства. Коэффициент теплоотдачи на внутренней поверхности (в лабиринтном канале) $\overline{\alpha}_1$ зависит от скорости *v* движения в канале. Так, увеличение *v* с 0,5 м/с до 1,5 м/с позволяет повысить $\overline{\alpha}_1$ с 2800 Вт/(м^{2}К) до 3800 Вт/(м^{2}К).

Обобщающая обработка экспериментальных данных с использованием зависимости числа Нуссельта $\overline{Nu}_1$ от чисел




Рис. 4. *Экспериментальная модель пластинчатого КУТ (две пластины).*

Рейнольдса *Re* и Прандтля Pr позволила определить аппроксимирующую зависимость:

$$\overline{Nu}_1 = 31 Re^{0,4} Pr^{0,4} \left(\frac{Pr}{Pr_{c1}} \right)^{0,25} \left(\frac{d_{ýê}}{l_ï} \right)^{0,9},$$

при $Re = (1,2...3,2)\cdot 10^4$; $Pr = 1,9...4,9$; $Pr/Pr_c = 0,95...0,99$.

В таких КУТ теплоотдача от наружной поверхности теплопередающей стенки к забортной воде осуществляется при свободной конвекции. В ходе экспериментов не обнаружено влияние скорости движения в лабиринтном канале *v* на значение коэффициента теплоотдачи $\bar{\alpha}_2$.

Обобщающая обработка экспериментальных данных позволила получить уравнение подобия для числа Нуссельта

$$\overline{Nu}_2 = 0,1 Ra^{0,33} \left(\frac{Pr_3}{Pr_{c2}} \right)^{-0,09},$$

где Число Релея $Ra = 2,1\cdot 10^{11} ... 2,6\cdot 10^{13}$, а значение $Pr_3/Pr_{c2} = 1,3...9,5$.

Поскольку $\bar{\alpha}_2 < \bar{\alpha}_1$, то теплоотдача забортной воде при свободной конвекции в значительной степени определяет значение коэффициента теплопередачи *K*. Данная величина существенно зависит от температурного напора между горячей пресной и забортной водой $\Delta t = t_{æ} - t_3$ (рис. 5).




Рис. 5. *Зависимость коэффициента теплопередачи K теплообменника от температурного напора Δt (v ≈0,9...1,0 м/с)*

Повышение скорости *v* движения воды также способствует увеличению *K* (рис. 6). Однако эффект от этого оказывается ниже, чем в случае изменения Δ*t*. Повышение *v* с 0,5 м/с до 2 м/с приводит к увеличению *K* с 470 Вт/(м^{2}К) до 530 Вт/(м^{2}К). При этом существенно (пропорционально v^2) возрастает гидравлическое сопротивление. Поэтому в канале не следует создавать скорости воды более 0,8...1,0 м/с.




Рис.6. *Зависимость коэффициента теплопередачи K от скорости v воды в лабиринтном канале (Δt ≈ 40 °C)*

С использованием полученных данных была разработана методика теплотехнического расчета КУТ на базе одиночной пластины. На этой основе подготовлена необходимая документация для морской стационарной эксплуатационной платформы № 2 (газовое месторож-

дение «Голицыно»), с целью её перевода на замкнутую систему охлаждения энергоустановки. Схема системы показана на рисунке 7. Энергоустановка укомплектована двигателями В2-450 (330 кВт), 1Д-6 (130 кВт) и Д60Р (45 кВт).

Пресная вода прокачивается насосами 1 через маслоохладитель 2 и зарубашечное пространство двигателей. После этого вода подается в КУТ 3. Для обеспечения требуемого температурного режима в схеме предусмотрено терморегулирование 4.

Заключение. Для обеспечения работы данной энергоустановки, требуемые размеры КУД составили 3,0×2,65×0,06 м. Само устройство было выполнено из стали 09Г2 толщиной 10 мм.

Таким образом, данная система позволяет достичь высокой надежности энергетического обеспечения морской платформы и сохранить рыбные ресурсы моря.




Рис. 7. *Схема замкнутой системы охлаждения энергоустановки стационарной морской эксплуатационной платформы № 2 месторождения «Голицино»: 1 - насос пресной воды; 2 - маслоохладитель; 3 - КУТ пластинчатого типа; 4 - терморегулятор; 5 - расширительный бачок*

Литература

1. *Замкнутые системы охлаждения судовых энергетических установок / к.ю федоровский., н.к. федоровская. Москва.: Вузовский учебник: Инфра М, 2017. 160 с.*
2. *Природоохранная технология обеспечения охлаждения судовой энергетической установки федоровский к.ю., федоровская н.к. в сборнике: сборник научных трудов профессорско-преподавательского состава государственного университета морского и речного флота имени адмирала с.о. макарова, сборник научных статей, 2016. с. 356-362.*

Tövsiyə edib: t.ü.f.d., dos. ***A.Ş.İsmayılov***

UOT 621.311.

MÜASİR GƏMİLƏRDƏ ELEKTROENERGETİK KOMPLEKSLƏRİN ARAŞDIRILMASI

Həmidov M.H., Məmmədova F.V., Qraçova Ş.H.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Azərbaycan Dövlət Dəniz Akademiyası
Az. Bakı ş. Azadlıq pr. 16/21,
Az1000 Bakı ş. Z.Əliyeva küç.18
E-mail: hemidov1946@mail.ru, faxranda.mammadova@ mail.ru, adnsu_e_51@mail.ru

Xülasə. *Su nəqliyyatında gəmilər üçün elektrotexniki kompleks avtonom olmaqla, vacib element sayılır. Gəmi elektrik avadanlıqlarının təhlükəsiz və səmərəli elektrik enerjisilə təmin olunması üçün, onlar keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməlidir. Bu məqsədlə onların qidalandırılması gəmi elektroenergetik sistemlərinə daxil olan generatorların paralel işləmələri ilə təmin olunur. İşlənmiş model əsasında aparılmış tədqiqatın nəticəsi olaraq, dizel-generator aqreqatlarının tezlik tənzimləyicilərinin ötürmə əmsalının kiçildilməsi ilə gəmi elektroenergetik kompleksinin dizel-generatorlarının paralel işi zamanı güc rəqslərinin dəyişməsini azaltmaq mümkün olmuşdur.*

Abstract. *The electro technical complex is considered as an important element of autonomy in water transport for ships. In order to secure safe and efficient electricity supply of the ship's electrical equipment, it must be ensured that they are supplied with quality and uninterrupted power. For this purpose, support is ensured by parallel processing of generators included in the ship's electro-power systems. As a result of the investigation based on provided model, it was possible by reducing of fluctuations of the power during the parallel operation of the diesel-generator of the ship's electro-energy complex, which was achieved by reducing the transmission coefficient of the rotary speed regulators of diesel-generator aggregates.*

Аннотация. *Электротехнический комплекс, являясь автономным, считается важным элементом для судов водного транспорта. Для обеспечения безопасного и эффективного электроснабжения судового электрооборудования необходимо обеспечить их качественную и бесперебойную работу. С этой целью их питание обеспечивается параллельной работой генераторов, входящих в электроэнергетическую систему. Выводом, сделанным на основе отработанной модели является то, что путём понижения коэффициента передачи регуляторов частоты вращения дизель-генераторных агрегатов было достигнуто уменьшение изменений силовых колебаний во время параллельной работы дизель-генераторов судового электроэнергетического комплекса.*

Açar sözlər: *generator, tezlik, rəqslərin amplitudası, firlanma tezliyi, kompleks*
Key words: *generator, frequency, amplitude of swing, frequency of rotation, complex*
Ключевые слова: *генератор, частот, амплитуды колебаний, частота вращение, комплекс*

Giriş. Hər hansı elektroenergetik komplekslər üçün və xüsusilə də gəmi təsərrüfatı üçün enerji mənbələri olan generatorların paralel işinin təmin olunması aktual məsələlərdəndir. Belə ki, istehsal olunan enerji, avadanlıqların enerji tələbatını tam şəkildə ödəməlidir.

Mənbə-generatorların paralel işinin pozulması gəmilərin idarə olunmasının çətinləşməsinə və nəticədə qəzaların baş verməsinə səbəb ola bilər. Bundan əlavə, istehsal edilən enerjinin keyfiyyətinin pis olması yanacaq sərfinin artması ilə nəticələnir. Nəzərə alsaq ki, gəmi elektrik avadanlıqlarının qidalandırılması dizel-generatorlar vasitəsilə həyata keçirilir, bu halda gəmi

elektroenergetik sistemlərinin əsasını təşkil edən dizel-generatorların paralel işinin təmin olunması çox vacibdir.

Müasir gəmi elektroenergetik sistemlərinə daxil olan dizel-generator aqreqatlarının paralel işinin təmin olunması, böyük sayda avtomatika sistemlərinin yaradılmasını tələb edir. Lakin bəzi hallarda gəmi elektroenergetik sistemlərində (GEES) tələb olunan şərtlərin pozulması halları baş verir ki, bu da qəza ilə nəticələnir. Belə hadisələrin baş verməsinə səbəb isə, işçi heyətin qeyri-peşəkarlığı və avtomatika sisteminin düzgün işləməməsidir.

Əsas hissə. Məqalədə sinxron generatorun hasil etdiyi gücün rəqs etməsi məsələsinə baxılmışdır. Gücün rəqsi birbaşa gəmi elektrik stansiyasının işinin dayanıqlığı ilə əlaqədardır. Bu sahədə xeyli sayda elmi-tədqiqat işləri aparılmasına baxmayaraq göstərilən problemin həlli yenə də aktual olaraq qalır. Odur ki, gəmi elektroenergetik sistemə daxil olan sinxron generatorların paralel işləməsi zamanı gücün rəqsinin yaranması səbəblərinin araşdırılması vacib məsələlərdəndir [1, 2].

Gəmi elektroenergetik sisteminə daxil olan sinxron generatorlarda gücün rəqsi dəyişmələrinin yaranma səbəbləri araşdırılır və bu səbəbləri aradan qaldırmaq üçün yeni bir avtomatik idarə sisteminin yaradılması ilə istehsal olunan enerjinin keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyin təmin olunması həyata keçirilir. İşlənilmiş avtomatik sistemin istismarda olan və eləcə də layihə olunan gəmilərdə tətbiqi məqsədə uyğundur. Bu sistem hər hansı avtonom elektroenergetik komplekslərdə də tətbiq oluna bilər.

Tədqiqat obyekti kimi avtonom gəmi elektroenergetik sistemlərinə daxil olan çoxgeneratorlu kompleksə baxılmışdır. Gəmi elektroenergetik sisteminin sinxron generatorlarının paralel işləməsi zamanı elektrik gücünün rəqslərinin dəyişməsi tədqiqatın əsasını təşkil edir.

Məqalədə əsas məqsəd – güc rəqslərinin dəyişməsinin amplitudasının azaldılması ilə gəmi sinxron generatorlarının idarə sisteminin təkmilləşdirilməsi və generatorların paralel işinin effektivliyinin yüksəldilməsi metodikasının işlənməsidir.

Beynəlxalq dəniz təşkilatının tələblərinə görə dəyişən cərəyan dizel-generator aqreqatlarının paralel işləməsinin göstəricilərinin təmin olunması üçün konkret tələblər yoxdur. Hansı ki, yuxarıda göstərdiyimiz kimi, gücün rəqslərinin dəyişməsi sinxronlaşmanın pozulmasına gətirib çıxara bilir. Bütün bu göstərilənlər gücün rəqsi, yəni güc axını ilə əlaqədar dəyişən cərəyan dizel-generatorlarının paralel işləmə sərfinin pozulmasına səbəb olur.


Gücün rəqsinin - güc axınının dəyişməsi, gücün bir dizel-generatordan digərinə keçməsilə əlaqədar baş verir ki, bu da tezliklər fərqinə gətirib çıxarır. Çıxarılmış ossiloqrammalara görə, paralel işləyən hər bir dizel-generatorda (DG), təxminən sinusoidal formada olmaqla verilmiş zaman anında, bir DG-nun maksimum gücü, digər DG-nun minimum gücünə uyğun olur və əksinə. Bu rəqslər generatorun cərəyanlarının və gərginliklərinin rəqsləri ilə əhatə olunur. Bu dəyişiklikləri cihazlar vasitəsilə müşahidə etmək mümkündür. Belə dəyişmələr DG işinə mənfi təsir göstərərək onların iş qabiliyyətlərini və etibarlığını zəiflədir.

Sinxron generatorlar arasında gücün rəqslərinin dəyişməsi problemi hər zaman aktual olmasına baxmayaraq, hələ də öz həllini tapa bilməmişdir [3].

Çoxlu sayda aparılmış elmi-tədqiqat işləri və eləcə də gəmi elektroenergetik sistemlərinin riyazi modelləşdirilməsi nəticəsində qərara gəlmək olar ki, DG aqreqatlarının paralel işləməsində gücün rəqsinə əsas səbəb tənzimləmə sistem elementlərində yaranan "sürüşmə"lərdir. Elektron tezlik tənzimləyicisinin riyazi ifadəsinə görə deyə bilərik ki, fırlanma tezlik konturunda yalnız iki tənzimlənən parametr mövcuddur ki, bunlardan biri tənzimləyicinin güclənmə əmsalı G_ω, ikincisi isə verilmiş fırlanma tezliyindəki siqnaldır.

Gücün dəyişmə rəqslərinin səviyyəsini azaltmaq üçün, dizelin fırlanma tezlik tənzimləyicisinin güc əmsalının azaldılması, yəni onun mexaniki xarakteristikasının sərtliyinin azaldılması effektli variantlardan biri sayıla bilər.


Qeyd etdiyimiz üsulla ideal halda modelləşmənin nəticəsini şəkil 1-də əyani şəkildə görə bilərik.



Şəkil 1. *İdeal rejimdə (generatorların fırlanma tezliklərinin tənzimləyiciləri arasında sürüşmə olmadığı hal) modelləşdirmənin nəticəsi*

Məlum olduğu kimi, fırlanma sürətinin nominal qiymətdə saxlanılması çox vacibdir. Belə ki, onun azalması istehsal olunan elektrik enerjisinin tezliyinin azalmasına və nəticədə gəmi elektrik avadanlıqlarının işinin pozulmasına gətirib çıxarır.

Fırlanma tezliyinin azalmasının qarşısını almaq üçün hər iki generatorda tezlik tənzimləyicisinin güclənmə əmsalı G_ω, 20-yə qədər azaldılmışdır. Bu halda, qərarlaşmış rejimdə rotorun fırlanma tezliyi $\omega_{r_1}, \omega_{r_2}$, 0,92-yə qədər azalmış olur ki, bu da onun çatışmayan cəhətidir. Bu məqsədlə işlənmiş modelin nəticəsi şəkil 2-də göstərilmişdir.



Şəkil 2. *Güclənmə əmsalının azaldılması halında modelləşmənin nəticəsi*


Burada $G_{\omega 1} = G_{\omega 2} = 20; \quad \omega_{r01} = \omega_{r02} = 1{,}0$

$D_{n1} = 0{,}002\ ; \quad D_{n2} = 0{,}01$

Növbəti addım olaraq, tapşırıq siqnalının fırlanma tezliyinin qiyməti 1,0-dan 1,05-ə qədər artırılmışdır. Bu halda, güclənmə əmsalının və siqnalın aşağıda göstərilən qiymətləri üçün modelləşmənin nəticələri şəkil 3-də göstərilmişdir.

$G_{\omega 1} = G_{\omega 2} = 20\ ;\ \omega_{r01} = \omega_{r02} = 1{,}05$

$D_{n1} = 0{,}002$ və $D_{n2} = 0{,}01$



***Şəkil 3**. Tapşırıq siqnalının fırlanma tezliyinin artırılması halında modelləşmənin nəticəsi*

Osilloqraflardan (şəkil 3) göründüyü kimi, hər iki generator üçün G_{ω} 20, ω_{r0} 1,05 qədər artmışdır, bu zaman generatorun rotorunun fırlanma sürəti $\omega_{r_1}, \omega_{r_2}$ nominal qiymətə yaxın olur və rəqsləri dəyişmə amplitudası artmamışdır.

Nəticə. Gəmi elektroenergetik sisteminə daxil olan sinxron generatorlarda gücün rəqsi dəyişmələrinin yaranma səbəbləri araşdırılır və bu səbəbləri aradan qaldırmaq üçün yeni bir avtomatik idarə sisteminin yaradılması ilə istehsal edilən enerjinin keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyin təmin olunması həyata keçirilir. İşlənilmiş avtomatik sistemin istismarda olan və eləcə də layihələndirilən gəmilərdə tətbiqi məqsədəuyğundur. Bu sistem hər hansı avtonom elektroenergetik komplekslərdə də tətbiq edilə bilər.

Ədəbiyyat

1. Həmidov M.H. Dəniz-neft mədən elektrik avadanlıqları və elektrik təchizatı Bakı.:2012, Nəşriyyat "Tİ- MEDİA", 302 səh.
2. Boldea I. The Electric Generators Handbook. Synchronous generators / I. Boldea. Taylor & Francis Group, LLC, 2006. 425 p. ISBN 0-8493-5725-X (alk. paper).
3. Савенко А. Е. Визначення амплитуди коливань потужности в судновий електроенергетичний системи // Контроль и управление в сложных системах: тезисы докладов XII Международной научно-технической конференции. Винница: ВНТУ, 2014. с. 133.

Tövsiyə edib: t.ü.f.d., dos. ***A.Ş.İsmayılov***

UOT 62.83

GƏMİ LÖVBƏR QURĞUSUNUN ELEKTRİK MÜHƏRRİKİNİN YARATDIĞI FIRLANMA MOMENTİNİN ARTIRILMASI

Həsənov E.A.

Azərbaycan Dövlət Dəniz Akademiyası
Az1000 Bakı ş. Z. Əliyeva küç., 18
E-mail: hasanov.079@mail.ru

Xülasə. *Məqalədə tezlik çeviricisi ilə idarə olunan gəmi lövbər qurğusunun elektrik mühərrikinin yaratdığı fırlanma momenti artırılmış və lövbərin dənizin dibindən qoparılması zamanı elektrik mühərrikinin qısaqapanma rejiminin aradan qaldırılmasının mümkünlüyü aşkar edilmişdir.*

Abstract. *In this article, It deals with the settle of necessity during short circuit rejime of electrical engine from the depth of the sea by means of anchor and as a result, It is analysed the increasing rolling moment of electrical engine according to the process of present by frequency tension.*

Аннотация. *В статье рассмотрено увеличение вращающего момента электродвигателя судового якорного устройства с частотно-преобразовательным управлением и устранение режима короткого замыкания двигателя во время травления якоря с морского дна.*

Açar sözlər: *gəmi, lövbər qurğusu, asinxron mühərrik, fırlanma sürəti, tənzim, tezlik çeviricisi*

Key words: *ship, anchor divice, asinchronoys motor, rotation speed, regulator, frequency converter*

Ключевые слова: *судно, якорное устройство, асинхронный двигатель, частота вращения, регулировка, преобразаватель частоты*


Giriş: Bildiyimiz kimi, lövbər qurğuları gəminin körpüyə yan almasını və onun lövbər salıb dayanmasını təmin edirlər [1, 2, 3].

Hal-hazırda lövbər-yanalma mexanizmlərinin çoxsürətli asinxron mühərrikləri müasir tələblərə cavab vermir. Aparılmış tədqiqatların nəticəsi göstərir ki, lövbər qurğularının elektrik mühərriklərinin tezlik çeviriciləri vasitəsilə idarə olunması bu qurğulara həm texniki, həm də iqtisadi üstünlüklər verə bilər [4].

Əsas hissə: Məqalədə tezlik çeviricisi ilə idarə olunan lövbər qurğusunun elektrik mühərrikinin gərgin iş rejiminin yaxşılaşdırılması üçün mühərrikin yaratdığı fırlandırıcı momentin artırılmasına baxılmış və lövbərin dənizin dibindən qoparılması zamanı elektrik mühərrikinin qısaqapanma rejiminin aradan qaldırılmasının mümkünlüyü aşkar edilmişdir.

Şəkil 1-də lövbər zənciri yığıldığı zaman elektrik mühərrikinin yük diaqramı göstərilmişdir. I mərhələdə zəncirin dənizin dibinə çökmüş hissəsi yığılır. t_1 zamanı ərzində zəncirin sallanan hissəsi sabit qaldığı üçün elektrik mühərrikinin valındakı Mc_1 momenti və onun fırlanma sürəti n_{m1} sabit qalır. II mərhələdə t_2 zamanı ərzində gəmi lövbərə doğru hərəkət edir və mühərrikin valında yaranan müqavimət momenti getdikcə artır (Mc_2). Bu isə mühərrikin yükünün artmasına, sürətinin isə azalmasına səbəb olur. II mərhələnin sonunda gəminin qabaq hissəsi demək olar ki, lövbərin üstündə olur. III mərhələdə elektrik intiqalının təsirindən və gəminin aldığı ətalətdən t_3 zamanı ərzində lövbər dənizin dibindən qoparılır. Bu zaman mühərrikin valında yaranan müqavimət momenti (Mc_3) lövbərin qıynaqlarının dənizin dibinə ilişməsinin hesabına çox böyük qiymətə malik olur və mühərrik az müddətdə qısaqapanma rejimində ($n_{m1}=0$) olur. Bu mərhələyə sərf olunan vaxt az olduğu üçün və elektrik mühərriki xüsusi quruluşda hazırlandığı üçün qısaqapanma rejiminə

davam gətirir. IV mərhələdə t_4 zamanı ərzində zəncirin suya sallanan hissəsi yıgılır. Bu mərhələdə mühərrikin valında yaranan moment (Mc_4) getdikcə azalır, mühərrikin fırlanma sürəti isə artır. Bununla da gəminin lövbərdən azad olunması prosesi başa çatır.



Şəkil 1. *Lövbər zənciri yığılan zaman elektrik mühərrikinin yük diaqramı*

Şəkil 1-dən aydın görünür ki, lövbər elektrik mühərrikinin iş rejimi geniş miqyasda dəyişir, hətta az müddətdə yük diaqramının t_3 hissəsində yük altında dayanır. Mühərrikin yük altında dayanması zamanı (qısaqapanma rejimində olduğundan) onun şəbəkədən aldığı cərəyan nominal qiymətə nisbətən 4-6 dəfə artır və bu rejim mühərrik üçün çox ağır rejim sayılır. Qısaqapanma rejiminin mühərrikə təsirini azaltmaq üçün lövbər qurğularının elektrik mühərrikləri 30 saniyə qısaqapanma rejiminə davam gətirən xüsusi quruluşa malik olur. Lövbər qurğusunun elektrik mühərrikində qısaqapanma rejiminin yaranmasının əsas səbəbi lövbəri dənizin dibindən qopardıqda onun qıynaqlarının dənizin dibinə ilişməsindən mühərrikin valında yaranan müqavimət momentinin bir neçə dəfə artmasıdır. Bu vaxt mühərrikin valında yaranan müqavimət momentinin qiyməti mühərrikin yaratdığı maksimal (kritik) momentdən çox olur və mühərrik yük altında dayanır.

Əgər lövbər elektrik intiqallarını idarə etmək üçün tətbiq edilməsi təklif olunan müasir tezlik çeviricilərindən istifadə edilərsə mühərrikin qısaqapanma rejiminə keçməsinin (yük altında dayanmasının) qarşısını almaq olar [4].

Aydındır ki, lövbərin pəncələrinin dənizin dibinə ilişməsindən yaranan müqavimət momentini azaltmaq olmaz, ancaq bu vaxt tezlik çeviricisinin idarə qanununu dəyişməklə mühərrikin yaratdığı maksimal momenti artırmaq olar.

Qeyd olunanların mümkünlüyünü nəzərə alaraq hal-hazırda gəmilərdə geniş tətbiq edilən 3 sürətli lövbər mühərrikinin işçi sarğısının (2-ci sarğı) parametrlərindən istifadə edilmişdir.

Mühərrikin tipi: MAP 622-4/8/16. Burada 4, 8, 16 – müvafiq olaraq mühərrikin statorunda yerləşən yüksək (4), orta (8) və alçaq (16) sürət dolaqlarının qütblər sayıdır. Müvafiq olaraq həmin dolaqların gücü: P_n=28/36/10 kVt-dır. Nominal fırlanma sürətləri: n_n=1445/670/315 d/dəq.-dir. Orta sürət dolağının (2P=8) parametrlərini təyin edək:

Dolağın artıq yüklənmə qabiliyyəti:

$$\lambda_2 = \frac{M_{\max 2}}{M_{n2}} = 2{,}4; \tag{1}$$

Dolağın nominal momenti:

$$M_{2n} = 9{,}81\frac{975 \cdot P_{2n}}{n_{2n}} = 9{,}81\frac{975 \cdot 36}{670} = 514 \quad \text{Nm} \tag{2}$$

Stator dolağının iş rejimində yaranan nominal sürüşmə aşağıdakı kimi olacaqdır:

$$S_{2n} = \frac{n_{02} - n_{n2}}{n_{02}} = \frac{750 - 675}{750} = 0{,}106 \tag{3}$$

Müvafiq olaraq kritik sürüşməni tapaq:

$$S_{2kr} = S_{2n}(\lambda_2 \pm \sqrt{\lambda_2^2 - 1}) = 0{,}106 \cdot (2{,}4 \pm \sqrt{2{,}4^2 - 1}) = 0{,}106 \cdot (2{,}4 + 2{,}18) = 0{,}48 \tag{4}$$

Dolaqların yaratdığı maksimal (kritik) moment aşağıdakı kimi olacaqdır:

$$M_{2kr} = \lambda_2 \cdot M_{2n} = 2{,}4 \cdot 514 = 1233{,}6 \ \text{Nm} \tag{5}$$

Lövbər qurğusunun mühərrikini tezlik çeviricisi ilə idarə etdikdə ancaq orta sürət dolağından (2P=8) istifadə edimişdir və onun tələb olunan iş rejimlərini yerinə yetirməsi yoxlanılacaqdır.

Misal üçün götürülmüş MAP-622 tipli asinxron mühərrikinin ancaq işçi dolağı (2-ci dolağı) gərginlik altında olduqda eninə impuls modulyasiyalı tezlik çeviricisi ilə fırlanma sürətinin tənzim olunmasına baxaq. Belə tezlik çeviriciləri asinxron mühərrikinin fırlanma sürətini 20-30 dəfə nominaldan aşağı və 1,5-2 dəfə isə nominaldan yuxarı qaldırmağa imkan verir. Burada əsas işçi dolağı (2p=8) vasitəsilə tezlik çeviricisinin köməyi ilə lövbər qurğusuna lazım olan nominaldan aşağı fırlanma sürətlərinin alınmasını və mühərrikin qısaqapanma rejiminin aradan götürülməsinin mümkün olmasını aydınlaşdıraq.

Məlum olduğu kimi, bu tənzimetmə üsulunda mühərrikin artıq yüklənmə qabiliyyətini (tənzimetmənin bütün pillələrində) sabit saxlamaq üçün mühərrikə verilən cərəyanın tezliyini dəyişdikdə, verilən gərginliyin də qiymətini dəyişmək lazımdır. Mühərrikin artıq yüklənmə qabiliyyəti o vaxt sabit olur ki, tənzim zamanı mühərrikin yaratdığı maksimal momentin ($M_{max.i}$) nominal sürətdə yaranan maksimal momentə ($M_{max.n}$) nisbəti mexanizmin yaradığı müqavimət momentinin nisbətinə barbər olsun:

$$\frac{M_{st.i}}{M_{st.n}} = \frac{M_{\max .i}}{M_{\max .n}} \tag{6}$$

Burada $M_{st.i}$, $M_{max.i}$ – tənzim zamanı mexanizmin yaratdığı statik müqavimət momentinin və mühərrikin maksimal momentinin qiymətləridir.

$M_{st.n}$, $M_{max.n}$ – statik müqavimət və mühərrikin maksimal momentinin nominal fırlanma sürətində qiymətləridir. Asinxron mühərrikin stator dolağının müqavimətini nəzərə almasaq onun maksimal (kritik) momenti bərabərdir:

$$M_{\max} = \frac{m_1 U_1^2}{2C_1 \omega_s X_q} = K\frac{U_1^2}{f_1^2} \tag{7}$$

Burada: $K = \frac{m_1 P^2}{8C_1 \pi^2 L_q}$ – sabit kəmiyyət, L_q -qısaqapanma induktivliyidir.

Elektrik intiqalının nəzəriyyəsi kursundan məlum olduğu kimi bir çox mexanizmlərin statik müqavimət momenti mexanizmə fırlanma hərəkəti verən mühərrikin bucaq sürətindən (ω) asılıdır:

$$M_{st} = M_0 + (M_n - M_0)^{\alpha} \tag{8}$$

Burada: M_0 – statik müqavimət momentinin bucaq sürətindən asılı olmayan hissəsi;

α - statik müqavimət momentinin bucaq sürətindən asılılığının dərəcəsini bildirən göstəricidir. Mexanizmlərin əsas hissəsi üçün $\alpha = 0 \div 2$

Əgər M_0 nəzərə almasaq (8) düsturunu aşağıdakı kimi yazmaq olar:

$$M_{st} = C\omega^{\alpha} = C_1 f_i^{\alpha} \tag{9}$$

Burada: C və C_1 - sabit kəmiyyətdir.

Qeyd etmək lazımdır ki, lövbər qurğusunun statik müqavimət momenti bucaq sürətinin dəyişməsi zamanı sabit qalır. $(M_{st} = const)$ və belə hal üçün $\alpha = 0$ olur. Yəni tənzim zamanı mühərrikə verilən gərginlik tezliklə mütənasib dəyişir. Onda yaza bilərik:

$$\frac{U_{1i}}{U_n} = \frac{f_i}{f_n} \tag{10}$$

Buradan, $$U_i = U_n \varphi_i \tag{11}$$

$\varphi_i = \frac{f_i}{f_n}$ - mühərrikə verilən cərəyanın tezliyinin dəyişməsinin nisbi qiymətidir.

Məlumdur ki, mühərrikə verilən cərəyanın tezliyi dəyişdikdə həmin mühərrikin stator dolağının yaratdığı sinxron bucaq sürəti (ω_c), mühərrikin induktiv müqaviməti X_q və bunların dəyişməsi ilə əlaqədar olaraq kritik sürüşmənin də qiyməti dəyişəcəkdir.

Statorun fırlanan maqnit seli $$\omega_{cn} = \frac{2\pi f_n}{P}; \quad \omega_{cf} = \omega_{cn} \cdot \varphi \tag{12}$$

Mühərrikin qısa-qapanma reaktiv müqaviməti $$X_q = X_{qn} \cdot \varphi \tag{13}$$

Kritik sürüşmənin dəyişən tezlikdə düsturu aşağıdakı kimi olacaqdır:

$$S_{kr \cdot f} = \pm \frac{C_1 r_2^{'}}{\sqrt{r_1^2 + X_q^2 \cdot \varphi^2}} \tag{14}$$

Burada statorun müqaviməti $r_1 = 0$ qəbul edilərsə, hansı ki, tezliyin dəyişməsilə gərginliyin dəyişmə qanununun çıxarılmasında qəbul edilmişdir [4]:

$$S_{kr \cdot f} = \pm \frac{C_1 r_2^{'}}{\varphi X_q} = \frac{S_{kr}}{\varphi} \tag{15}$$

(15) düsturunu Kloss düsturunda (16) yerinə yazsaq, həmin düsturun yeni gərginlik və tezliyin dəyişməsi halı üçün ifadəsini alarıq:

$$M_f = \frac{2 \cdot M_{kr}}{\frac{s}{s_{kr}} + \frac{s_{kr}}{s}} \tag{16}$$

$$M_f = \frac{2 \cdot M_{kr}}{\frac{S \cdot \varphi}{S_{kr}} + \frac{S_{kr}}{S \cdot \varphi}} \tag{17}$$

Yuxarıda gösərildiyi kimi (17) düsturundan istifadə edib MAP-622 tipli asinxron mühərrikinin işçi dolağı üçün tezliyin müxəlif qiymətlərində yaranan mexaniki xarakteristikalarını quraq. Tənzim etmə, tezliyi nominaldan başlayaraq azaltmaqla, gərginliyi isə nominal qiymətdə (380 V) saxlamaqla mühərrikin fırlanma sürətinin azaldılması istiqamətində aparılacaqdır.

Məlum olduğu kimi, asinxron mühərrikin maksimal (kritik) momenti gərginliyin kvadratı ilə düz, tezliyin kvadratı ilə tərs mütənasibdir. $M_{kr} \equiv \frac{U^2}{f^2}$. Buna görə də mexaniki xarakteristikaların qurulmasında tezliyin azaldılmış qiymətləri üçün yeni maksimal momenti hesablamaq lazım gəlir. Bu vəziyyətdə $M_{st} = const$ olduğu üçün fırlanma sürətinin azalması istiqamətindəki moment düsturundan istifadə ediləcəkdir. Həmin düsturda tezliyin müəyyən qiyməti üçün φ tapılır və φ-nin qiyməti düsturda sabit qalmaq şərtilə sürüşmənin (S) ayrı-ayrı qiymətləri (0-dan 1-ə kimi) üçün mühərrikin yaratdığı moment tapılır. φ-nin 1; 0,8; 0,7; 0,6 və 0,5 qiymətləri üçün aparılmış hesabatın nəticəsi cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

$U = U_n = 380\,V$ $f = f_n = 50\ Hs$ $\varphi = \frac{f}{f_n} = 1$ $M_{\max 1} = 1233{,}6$ Nm	S	0	0,05	0,1	0,3	0,4	0,48	0,6	0,7	0,8	1
	M_1 *(Nm)*	0	254	493	1111	1215	1293	1203	1152	1091	963
	n *(d/dəq)*	750	712	675	525	450	390	300	225	150	0
$U = U_n = 380\,V$ $f = 0{,}8 \cdot f_n = 40\ Hs$ $\varphi = \frac{f}{f_n} = 0{,}8$ $M_{\max 2} = 1927{,}5$ Nm	S	0	0,05	0,1	0,3	0,4	0,48	0,6	0,7	0,8	1
	M_2 *(Nm)*	0	319	625	1542	1784	1871	1927	1908	1853	1701
	n *(d/dəq)*	600	570	540	420	360	312	240	180	120	0
$U = U_n = 380\,V$ $f = 0{,}7 \cdot f_n = 35\ Hs$ $\varphi = \frac{f}{f_n} = 0{,}7$ $M_{\max 3} = 2517{,}5$ Nm	S	0	0,05	0,1	0,3	0,4	0,48	0,6	0,7	0,8	1
	M_3 *(Nm)*	0	363	719	1851	2237	2363	2504	2518	2488	2363
	n *(d/dəq)*	525	498	472	367	315	273	210	157	105	0
$U = U_n = 380\,V$ $f = 0{,}6 \cdot f_n = 30\ Hs$ $\varphi = \frac{f}{f_n} = 0{,}6$ $M_{\max 4} = 3426{,}6$ Nm	S	0	0,05	0,1	0,3	0,4	0,48	0,6	0,7	0,8	1
	M_4 *(Nm)*	0	426	843	2253	2741	2966	3294	3392	3426	3343
	n *(d/dəq)*	450	427	405	315	270	234	180	135	90	0

1. $$U = U_n = 380\ V; \quad f_n = 50\ Hs; \quad \varphi = \frac{f}{f_n} = \frac{50}{50} = 1$$

$$M_{kr1} = \frac{M_{kr \cdot n}}{\varphi^2} = \frac{1233{,}6}{1^2} = 1233{,}6 \text{ Nm}$$

$$M = \frac{2 \cdot M_{kr}}{\frac{S_2 \cdot \varphi}{S_{kr}} + \frac{S_{kr}}{S_2 \cdot \varphi}} = \frac{2 \cdot 1233{,}6}{\frac{S_2 \cdot 1}{0{,}48} + \frac{0{,}48}{S_2 \cdot 1}}$$

2. $$U = U_n = 380\ V; \quad f = 0{,}8 \cdot f_n = 0{,}8 \cdot 50 = 40\ Hs; \quad \varphi = \frac{f}{f_n} = \frac{40}{50} = 0{,}8$$

$$M_{kr2} = \frac{M_{kr \cdot n}}{\varphi^2} = \frac{1233{,}6}{0{,}8^2} = 1927{,}5 \text{ Nm}$$

$$M = \frac{2 \cdot M_{kr1}}{\frac{S_2 \cdot \varphi}{S_{kr}} + \frac{S_{kr}}{S_2 \cdot \varphi}} = \frac{2 \cdot 1927{,}5}{\frac{S_2 \cdot 0{,}8}{0{,}48} + \frac{0{,}48}{S_2 \cdot 0{,}8}}$$

3. $$U = U_n = 380\ V; \quad f = 0{,}7 \cdot f_n = 0{,}7 \cdot 50 = 35\ Hs; \quad \varphi = \frac{f}{f_n} = \frac{35}{50} = 0{,}7$$

$$M_{kr3} = \frac{M_{kr \cdot n}}{\varphi^2} = \frac{1233{,}6}{0{,}7^2} = 2517{,}5 \text{ Nm}$$


$$M = \frac{2 \cdot M_{kr1}}{\frac{S_2 \cdot \varphi}{S_{kr}} + \frac{S_{kr}}{S_2 \cdot \varphi}} = \frac{2 \cdot 2517{,}5}{\frac{S_2 \cdot 0{,}7}{0{,}48} + \frac{0{,}48}{S_2 \cdot 0{,}7}}$$

4. $U = U_n = 380\ V;\ f = 0{,}6 \cdot f_n = 0{,}6 \cdot 50 = 30\ Hs;\ \varphi = \frac{f}{f_n} = \frac{30}{50} = 0{,}6$

$$M_{kr4} = \frac{M_{kr \cdot n}}{\varphi^2} = \frac{1233{,}6}{0{,}6^2} = 3426{,}6\ \text{Nm}$$

$$M = \frac{2 \cdot M_{kr1}}{\frac{S_2 \cdot \varphi}{S_{kr}} + \frac{S_{kr}}{S_2 \cdot \varphi}} = \frac{2 \cdot 3426{,}6}{\frac{S_2 \cdot 0{,}6}{0{,}48} + \frac{0{,}48}{S_2 \cdot 0{,}6}}$$

Cədvəl 1-ə əsasən MAP-4/8/16 tipli asinxron mühərrikinin orta sürət dolağının (2P=8) təbii mexaniki xarakteristikasının MATLAB proqramının Simulink bölməsində hesablanmışdır. Şəkil 2-də isə bu proqram vasitəsilə hesablanmış və $M_{st} = const$ şətinə uyğun olaraq tezliyin müxtəlif qiymətləri üçün (f=50, 40, 35 və 30 Hs) MAP 622-4/8/16 tipli asinxron mühərrikinin orta sürət dolağının mexaniki xarakteristikaları təsvir edilmişdir.



Şəkil 2. *Tezliyin müxtəlif qiymətləri üçün (f=50, 40, 35 və 30 Hs) MAP 622-4/8/16 tipli asinxron mühərrikin orta sürət dolağının mexaniki xarakteristikaları*

Cədvəl 1-dən və mexaniki xarakteristikadan (Şəkil 4) göründüyü kimi, tezlik azaldıqca mühərrikin maksimal momenti artır. Məsələn, f=30 Hs oduqda $M_{max} = 3426{,}6\ Nm$, f=50 Hs olduğu zaman maksimal momentdən 2,77 dəfə çoxdur:

$$\frac{M_{max}(f = 30\ Hs)}{M_{max}(f = 50\ Hs)} = \frac{3426{,}6}{1233{,}6} = 2{,}77$$

Elektrik mühərrikinin dayandırılmadan lövbərin qruntdan qopması zamanı cərəyanın tezliyini müəyyən etmək üçün kiçik hesablama aparaq. Qopma qüvvəsinin qiyməti lövbərin qrunta ilişmə xarakterindən asılıdır və konkret hallarda çətin müəyyən olunur. Statistik tədqiqatlar lilə batmış Holl lövbərinin qruntdan qopma qüvvəsini onun ikiqat ağırlığına $(2G_L)$bərabər hesab etməyə imkan verir. Belə olduqda klüzdəki qopma qüvvəsini aşağıdakı kimi hesablamaq olar [1]:

$$F_{qop} = 0{,}87[2G_L + (G_L + qh)], \qquad (23)$$

Burada: G_L – lövbərin çəkisi;

q – bir metr lövbər zəncirinin çəkisi;

h – lövbərdə dayanma yerin dərinliyi.

Misal olaraq göstərilmiş МАП 622-4/8/16 tipli elektrik mühərriki Azərbaycan Respublikasının "Gəncə" tipli tankerlərin lövbər qurğularının elektrik intiqalında quraşdırılıb.

Bu gəmilərdə lövbərin çəkisi: $G_L = 2500\ kq$.

Bir metr lövbər zəncirinin çəkisi: $q = 51{,}62\ kq$.

Lövbərdə dayanma yerinin dərinliyi: $h = 100\ m$ qəbul edirik.

Bu gəmilərdə klyuzda qopma qüvvəsi:

$$F_{qop} = 0{,}87[2G_L + (G_L + qh)] = 0{,}87[2 \cdot 2500 + (2500 + 51{,}62 \cdot 100)] =$$
$$0{,}87[500 + 7662] = 11016\ kq \text{ və ya } F_{qop} = 9{,}81 \cdot 11016 = 108067\ N$$

Lövbərin qurğusunun ulduzunda qopma qüvvəsi:

$$F_{uld} = \frac{F_{qop}}{\eta_{kl}} = \frac{108067}{0{,}7} = 154381\ N$$

Burada: η_{kl} – klyuzun f.i.ə.

Lövbərin qurğusunun elektrik mühərrikinin valındakı moment:

$$M_{el.müh} = \frac{F \cdot D_{ul}}{2 \cdot К \cdot \eta_{löv}}, \qquad (24)$$

Burada: D_{ul} – lövbər ulduzunun diametri, $D_{ul} = 0{,}7\ m$.

$\eta_{löv}$ – lövbər qurğusunun reduktorla birgə f.i.ə. $\eta_{löv} = 0{,}65 \div 0{,}8$, $\eta_{löv} = 0{,}7$ qəbul edirik.

К – lövbər qurğusunun reduktorunun ötürücü sayı, $К = 80$.

$$M_{el.müh} = \frac{F \cdot D_{ul}}{2 \cdot К \cdot \eta_{löv}} = \frac{154381 \cdot 0{,}7}{2 \cdot 80 \cdot 0{,}7} = \frac{108067}{112} = 965\ Nm$$

Hesablamanın nəticəsindən göründüyü kimi, lövbər qruntdan qopduğu zaman elektrik mühərrikinin nominal momentindən təqribən 2 dəfə çoxdur ($M_n = 514\ Nm$). Bundan əlavə, nəzərə alsaq lövbər qruntdan qopduğu zaman elektrik mühərrikini qidalandıran kabeldə gərginlik itkisinin artması hesabına moment daha da azalacaq, çünki asinxron mühərrikinin momenti gərginliyin kvadratından asılıdır: $M_{A.M} \equiv U^2$.

Cədvəl 1-dən göründüyü kimi, mühərriki dayandırmadan lövbərin qruntdan qopması cərəyanın tezliyinin 40 Hs olduğundan başlayaraq həyata keçirilə bilər. Bu zaman mühərrikin maksimal momenti 50 Hs-də olduğundan 1,56 dəfə artıqdır.

Nəticə. Aparılmış hesablamalar göstərdi ki, lövbər qurğusunun elektrik mühərrikinin idarə edilməsi üçün tezlik çeviricisindən istifadə olunduqda, çeviricinin intiqala verdiyi üstünlüklərdən əlavə olaraq lövbəri dənizin dibindən qopardıqda elektrik mühərrikində yaranan qısaqapanma rejimini də aradan qaldırmaq olar.

Ədəbiyyat

1. Mehdiyev H. A, Həsənov Z. Ə, Şabanov T.H. Avtomatlaşdırılmış gəmi elektrik intiqalları. Bakı: Nurlan, 2005, 358 səh.
2. Судовые электроприводы. Справочник. Л. Судостроение. 1983, Т.II-384 с.
3. Mehdiyev H.A, Həsənov E.A. Avtomatlaşdırılmış lövbər-yanalma qurğularının sürətinin tənzim həddinin artırılması. //Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, Bakı.: 2003, səh. 59–63.
4. Sultanov E.F., Həsənov E.A. Gəmi lövbər qurğusunun elektrik intiqalının tezlik çeviricisi vasitəsilə idarə olunması, Energetikanın problemləri, Elm nəşriyyatı, Bakı, №3, 2014, səh. 65-77.
5. Чекунов К.А. Теория судового электропривода. Л.: Судостроение, 1982,382 с.

Tövsiyə edib: t.ü.f.d., dos. ***A.Ş.İsmayılov***

UOT 621.3:007

6L20 MARKALI BAŞ GƏMİ DİZELİ MÜXTƏLİF NÖV MAYE YANACAQLA İŞLƏDİKDƏ BAŞLANĞIC PÜSKÜRMƏ TƏZYİQİNİN VƏ YANACAQ VERİLMƏSİNİN QABAQLAMA BUCAĞININ ONUN GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN NƏZƏRİ TƏDQİQİ

İsmayılov A.Ş., Axundov İ.S.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı ş., Z.Əliyeva küç.,18
E-mail: a.ismayilov27@gmail.com

Xülasə. *Məqalədə 6L20 markalı baş gəmi dizel mühərriki müxtəlif maye yanacaqlarla işlədikdə forsunkanın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının yanma prosesiniin parametrlərinə, mühərrikin indikator və effektiv göstəricilərinə təsirini aydınlaşdırmaq məqsədi ilə yerinə yetirilən riyazi eksperimentlərin nəticələrinin nəzəri tədqiqinə baxılmışdır.*

Аннотация. *В статье рассматривается теоретическое исследование результатов вычислительных экспериментов, проведенных с целью определения влияния давления начала впрыска форсунки и угла опережения начала подачи топлива на параметры процесса сгорания, на индикаторные и эффективные показатели главного судового дизельного двигателя марки 6L20 при работе с различными видами жидкого топлива.*

Abstract. *The theoretical study of the results of computational experiments is examined in this Article, in order to determine the influence of the variation of start pressure of fuel injection and the angle of initial fuel injection on the parameters of the combustion process, the indicatory and effective parameters of marine main diesel engine type of 6L20.*

Açar sözlər: *Dizel mühərriki, yanacaq, sıxlıq, riyazi eksperimentlər, indikator göstəriciləri, effektiv göstəricilər, indikator gücü, effektiv güc, yanacaq sərfi, yanma müddəti, istilikdən istifadə olunma əmsalı, induksiya periodu*

Ключевые слова: *Дизельный двигатель, топливо, плотность, вычислительные эксперименты, индикаторные показатели, эффективные показатели, индикаторная мощность, эффективная мощность, расход топлива, продолжительность сгорания, коэффициент использования теплоты, период индукции*

Key words: *Diesel engine, fuel oil, density, computational experiments, indicator parameters, effective indicators, indicated power, effective power, fuel consumption, combustion duration, coefficient of heat utilization, induction period*

Giriş. Gəmi baş dizel mühərriklərində müxtəlif növ yüngül və ağır yanacaqdan istifadə olunur. Bu yanacaqlar bir-birindən, əsasən sıxlıqlarına, özlülüklərinə, alışma temperaturuna, setan ədədinə və s. parametrlərinə görə fərqlənirlər. Odur ki, mühərrikdə istifadə olunan yanacağın növü dəyişdikdə, onun mühərrikin göstəricilərinə necə təsir edəcəyinin qabaqcadan proqnozlaşdırılması çox mühümdür. Belə proqnozlaşdırma iki yolla mümkündür: birincisi, həmin yanacaqdan istifadə etməklə mühərrikin əsas göstəricilərinin motor sınaqları vasitəsi ilə, ikincisi, yanacağın əsas fiziki-kimyəvi göstəricilərinin dəyişməsini nəzərə ala biləcək hesablama metodikasından [1,2] istifadə etməklə mühərrikin əsas göstəricilərinin riyazi eksperimentlərin köməyi ilə təyin olunması. Birinci halda, xeyli material və vaxt itkisinə yol verildiyindən, ikinci hal daha məqsədəuyğun hesab edilir. Belə ki, bu halda çox qısa bir müddətdə, heç bir material itkisinə yol vermədən, istifadə olunan yanacağın növündən asılı olaraq mühərrikin əsas göstəriciləri təyin olunur və istismar

parametrlərinin onların ən qənaətbəxş qiymətlərini təmin edə biləcək rasional qiymətləri seçilir. Bu da baxılan məsələnin aktuallığını göstərir.

Əsas hissə. 6L20 markali baş gəmi dizelində istifadə olunan yanacaqlarin əsas fiziki-kimyəvi xassələri cədvəl 1-də göstərilmişdir. Bu cədvəldə göstərilən qiymətlər "Gəncə" gəmisində istifadə olunan yanacaqların sertifikatlarından götürülmüşdür.

Cədvəl 1.

6L20 markalı baş gəmi dizelində istifadə olunan yanacaqların əsas fiziki-kimyəvi xassələri

Göstəricilərin adı	Sıxlıq, kq/m^3			
	827	838	848	900
1. Setan ədədi (S.Ə), ən azı	51	51	45	35
2. Setan indeksi (S.İ), ən azı	50,4	50,4	-	35
3. Kükürdün kütlə miqdarı, mq/kq, ən çoxu	-	8,6	9,0	1,5
4. Qapalı tigeldə alışma temperaturu, ^{0}S, ən azı	74	67	65	60
5. 10%-qalığın kokslaşması, həcm %-i, ən çoxu	-	0,03	0,03	0,3
6. Küllülük, həcm %-i, ən çoxu	Yoxdur	Yoxdur	Yoxdur	0,01
7. Suyun kütlə miqdarı, mq/kq, ən çoxu	Yoxdur	38	-	0,3
8. Mexaniki qarışıqların kütlə miqdarı, ən çoxu	Yoxdur	Yoxdur	Yoxdur	-
9. Kinematik özlülük (40^0S temperaturda, sSt (mm^2/san)	2,98	2,579	2,76	2÷11
10. Aşağı yanma istiliyi (Q_H), MC/kq	42,654	42,654	42,654	41,418

Forsunkanın başlanğıc püskürmə təzyiqindən asılı olaraq 6L20 markalı baş gəmi dizeli standart dizel yanacağı ilə işlədikdə yanma prosesini xarakterizə edən parametrlərin (φ_z, ξ_z, P_z, T_z, τ_i), indikator (P_i, N_i, g_i, η_i) və effektiv (P_e, N_e, g_e, η_e) göstəricilərin forsunkanın başlanğıc püskürmə təzyiqindən asılı olaraq dəyişən qiymətləri cədvəl 2-də göstərilmişdir. Riyazi eksperimentlər mühərrikin nominal iş rejimi üçün ($n=1000$*dəq*$^{-1}$) forsunkanın başlanğıc püskürmə təzyiqinin *35, 40, 45* və *50 MPa* qiymətlərində yerinə yetirilmişdir. Bu zaman yanacaq verilməsinin qabaqlama bucağı meniskə görə $\theta_{men} = 9{,}8^0$, mühərrikin mexaniki f.i.ə. $\eta_m = 0{,}85$, istifadə olunan standart dizel yanacağının sıxlığı $\rho_{dy} = 848\, kq/m^3$ və setan ədədi *45*, mühərrikin nominal iş rejimi üçün yanacağın başlanğıc püskürmə təzyiqinin optimal (rasional) qiyməti P_{fopt} *= 45 MPa* qəbul olunmuşdur [3].

Cədvəl 2.

6L20 markalı baş gəmi dizeli standart dizel yanacağı ilə işlədikdə onun əsas göstəricilərinin forsunkanın başlanğıc püskürmə təzyiqindən asılı olaraq dəyişməsi
($\theta_{men} = 9{,}8^0$; $n=1000$*dəq*$^{-1}$; $\eta_m = 0{,}85$; $\rho_y = 848\, kq/m^3$)

Göstəricilər	**P_{fx}, MPa**			
	35	**40**	**45**	**50**
1. Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	16,93	18,09	18,56	18,11
2. Yanmanın maksimum temperaturu (T_z), *K*	1668	1838	1992	2133
3. İndikator f.i.ə. (η_i)	0,422	0,482	0,537	0,582
4. İnduksiya periodu ($\tau_i \cdot 10^3$), *saniyə*	0,2154	0,1678	0,6747	1,338
5. Orta indikator təzyiqi (P_i), *MPa*	2,229	2,55	2,834	3,075
6. İndikator gücü (N_i), *kVt*	980	1120	1247	1353
7. Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	200	175	157,2	144,9
8. Orta effektiv təzyiq (P_e), *MPa*	1,895	2,168	2,410	2,614
9. Effektiv güc (*Ne*), *kVt*	833	952	1060	1150
10. Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	235	206	185	170,5
11. Yanma istiliyindən istifadə olunma əmsalı (ξ_z)	0,666	0,761	0,856	0,951
12. Effektiv f.i.ə. (η_e)	0,359	0,410	0,456	0,495
13. Yanma müddəti (φ_z), dər.	64	56	50	45

Cədvəl 2-dən göründüyü kimi başlanğıc püskürmə təzyiqi böyüdükcə induksiya periodu (τ_i) əvvəlcə azalır (P_{fx}=*40 MPa*-ya qədər), sonra isə (P_{fx} = *40 MPa*-dan sonra) artır. Fikrimizcə, buna səbəb, başlanğıc püskürmə təzyiqinin böyüməsi ilə silindrə püskürülən yanacaq daha narın tozlandığından, yanacağın buxarlanması üçün daha çox istilik sərf edildiyinə görə silindrdəki temperaturun azalması nəticəsində yanmanın gec başlamasıdır. Başlanğıc püskürmə təzyiqi artdıqca τ_i – nin artması [4]–də də öz təsdiqini tapmışdır.

Başlanğıc püskürmə təzyiqinin artması zamanı yanacağın tozlanması və buxarlanması yaxşılaşdığından yanıcı qarışığın hazırlanma keyfiyyəti yaxşılaşır, yanma prosesi daha intensiv gedir və silindrdəki təzyiq (P_z) və temperatur (T_z) yüksəlir. P_{fx} = *50 MPa*-da təzyiqin aşağı düşməsi induksiya periodu böyüdüyündən silindrdəki maksimum təzyiqin və temperaturun porşenin y.ö.n-dən daha çox keçmiş qiymətində ($16,5^0$) alındığına görə silindrin həcminin böyüməsi ilə izah olunur.

Başlanğıc püskürmə təzyiqi böyüdükcə induksiya periodunun artması, yanıcı qarışığın hazırlanma keyfiyyətinin yaxşılaşması və yanma prosesinin daha sürətlə baş verməsi yanma müddətinin (φ_z) azalmasına, istilikdən istifadə olunma əmsalının (ξ_z) isə artmasına səbəb olur. P_{fx} = *50 MPa*-da φ_z-in artmasına, ξ_z-in isə azalmasına yanmanın genişlənmə prosesinə keçməsi səbəb olur.

Yanacaq verilməsinin qabaqlama bucağının meniskə görə *4,8; 9,8; 14,8; 19,8* və $24,8^0$ qiymətlərində 6L20 markalı dizel mühərrikində standart dizel yanacağından istifadə edildikdə riyazi eksperimentlərin nəticələri cədvəl 3–də verilmişdir. Bu cədvəldən göründüyü kimi yanacaq verilməsinin qabaqlama bucağının böyüməsi induksiya periodunun (τ_i) da artmasına səbəb olur. Bu, θ-nın artması ilə silindrə yanacaq verilməsi anında silindrdəki havanın sıxlıq və temperaturunun azalması ilə izah olunur [5]. Bu riyazi eksperimentlər yanma müddətinin (φ_z), istilikdən istifadə olunma əmsalının (ξ_z) sabit və optimal qiymətlərində yerinə yetirilmişdir.

Yanacaq verilməsinin qabaqlama bucağının böyüdülməsi nəticəsində silindrdəki maksimum təzyiq (P_z) və maksimum temperatur (T_z) da artır. Lakin bu zaman temperaturun artma intensivliyi eyni olduğu halda, təzyiqin dəyişməsi $\theta \leq 14,8^0$ qiymətlərində daha intensiv olur. Məsələn, θ $4,8^0$-dən $9,8^0$-yə kimi böyüdükdə P_z *3,03 MPa*, θ $9,8^0$-dən $14,8^0$-yə kimi böyüdükdə P_z *2,9 MPa* artırsa,

θ $14,8^0$- dən $19,8^0$-yə kimi böyüdükdə P_z *2,49 MPa*, θ $19,8^0$-dən $24,8^0$-yə kimi böyüdükdə isə P_z *1,9 MPa* artır.

Cədvəl 3.

6L20 markalı baş gəmi dizeli standart dizel yanacağı ilə işlədikdə onun əsas göstəricilərinin yanacaq verılməsının qabaqlama bucağından asılı olaraq dəyişməsi

(P_{fo}=*45 MPa*; n=*1000 dəq*$^{-1}$; η_m=*0,85*; ρ_y=*848 kq/m*^{3})

Göstəricilər	**θ_{men}, dər. Y.Ö.N.-ə qalmış**				
	4,8	**9,8**	**14,8**	**19,8**	**24,8**
1.Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	15,94	18,97	21,87	24,36	26,26
2.Yanmanın maksimum temperaturu (T_z), *K*	1949	2000	2061	2122	2185
3.İndikator f.i.ə. (η_i)	0,519	0,539	0,553	0,561	0,565
4.İnduksiya periodu ($\tau_i \cdot 10^3$), *san.*	0,5173	0,572	0,7031	0,9352	1,309
5.Orta indikator təzyiqi (P_i), *MPa*	2,738	2,846	2,921	2,963	2,982
6.İndikator gücü (N_i), *kVt*	1204	1252	1285	1303	1312
7.Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	162,8	156,6	152,6	150,4	149,4
8.Orta effektiv təzyiq (P_e), *MPa*	2,327	2,42	2,483	2,519	2,535
9.Effektiv güc (N_e), *kVt*	1023	1064	1092	1108	1115
10.Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	191,5	184,2	179,5	176,9	175,8
11.Effektiv f.i.ə. (η_e)	0,441	0,458	0,470	0,477	0,48

Cədvəl 3-dən aydın olur ki, yanacaq verilməsinin qabaqlama bucağının artması zamanı mühərrikin indikator və effektiv gücü (N_i və N_e) artır, xüsusi indikator və effektiv yanacaq sərfləri (g_i və g_e) isə azalır. Lakin, burada da, maksimum təzyiqdə (P_z) olduğu kimi $\theta \leq 14{,}8^0$ qiymətlərində N_i və N_e-nin artma intensivliyi, g_i və g_e-nin isə azalma intensivliyi daha çoxdur. Məsələn, θ $4{,}8^0$-dən $9{,}8^0$-yə kimi artdıqda N_e 48 *kVt*, $9{,}8^0$-dən $14{,}8^0$-yə kimi böyüdükdə isə N_e 33 *kVt* artırsa, θ $14{,}8^0$-dən $19{,}8^0$-yə kimi böyüdükdə N_e 18 *kVt*, $14{,}8^0$-dən $24{,}8^0$-yə kimi böyüdükdə isə 9 *kVt* artır. Xüsusi effektiv yanacaq sərfi (g_e) θ $4{,}8^0$-dən $9{,}8^0$-yə kimi böyüdükdə 7,3 $q/(kVt \cdot saat)$, $9{,}8^0$-dən $14{,}8^0$-yə kimi böyüdükdə isə 5,2 $q/(kVt \cdot saat)$ azalırsa, θ $14{,}8^0$-dən $19{,}8^0$-yə kimi böyüdükdə g_e 2,6 $q/(kVt \cdot saat)$, $19{,}8^0$-dən $24{,}8^0$-yə kimi böyüdükdə isə 1,1 $q/(kVt \cdot saat)$ azalır. Deməli, 6L20 markalı baş gəmi dizelində yanacaq verilməsinin qabaqlama bucağının $14{,}8^0$-dən çox böyüdülməsi silindrdəki maksimum təzyiqin qiymətinin həddindən artıq artmasına, eləcə də bu qiymətin y.ö.n.-ə yaxınlaşmasına səbəb olur ki, bu da öz növbəsində təzyiqin yüksəlmə sürətinin, daha doğrusu, mühərrikin sərtlik dərəcəsinin, artması ilə müşahidə olunur. Digər tərəfdən, yanacaq verilməsinin qabaqlama bucağının həddindən artıq kiçildilməsi (məsələn, $\theta_1 = 4{,}8^0$ olduqda) yanma prosesi genişlənmə xəttinə keçir ki, bu da indikator və effektiv göstəricilərin pisləşməsinə, gücün azalmasına, yanacaq sərfinin isə artmasına səbəb olur. Odur ki, $\theta_1 = 9{,}8^0$ qiyməti bu mühərrik üçün optimal və yaxud rasional hesab oluna bilər.

Qeyd etmək lazımdır ki, yuxarıda şərh olunan riyazi eksperimentlər zamanı (cədvəl 2. və cədvəl 3.) standart dizel yanacağının aşağı yanma istiliyi $Q_H = 42{,}654\ MC/kq$ qəbul olunmuşdur (cədvəl 1.).

Beləliklə, bu riyazi eksperimentlərin nəticələrinə görə aydın olur ki, 6L20 markalı baş gəmi dizel mühərriki standart dizel yanacağı ilə işlədikdə, forsunkanın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının uyğun olaraq 45*MPa* və $9{,}8^0$ qiymətlərini rasional qiymətlər kimi qəbul etmək olar. Belə ki, bu halda həm yanma prosesinin parametrləri, həm də mühərrikin indikator və effektiv göstəriciləri qənaətbəxşdir.

Cədvəl 4.

6L20 markalı baş gəmi dizeli motor yanacağı ilə işlədikdə onun əsas göstəricilərinin forsunkanın başlanğıc püskürmə təzyiqindən asılı olaraq dəyişməsi

($\theta_{men} = 9{,}8^0$; *n=1000 dəq*$^{-1}$; $\eta_m = 0{,}85$; $\rho_y = 900\ kq/m^3$, $Q_H = 42{,}654\ MC/kq$)

Göstəricilər	P_{fx}, MPa				
	35	**40**	**45**	**50**	**55**
1. Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	13,29	15,55	18,0	20,52	23,09
2. Yanmanın maksimum temperaturu (T_z), *K*	1547	1735	1919	2100	2277
3. İndikator f.i.ə. (η_i)	0,3792	0,444	0,5073	0,568	0,627
4. İnduksiya periodu ($\tau_i \cdot 10^3$), *san.*	0,8654	0,757	0,6731	0,6058	0,551
5. Orta indikator təzyiqi (P_i), *MPa*	2,002	2,346	2,678	2,999	3,309
6. İndikator gücü (N_i), *kVt*	880,3	1032	1178	1319	1455
7. Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	222,6	189,9	166,4	148,6	134,7
8. Orta effektiv təzyiq (P_e), *MPa*	1,702	1,994	2,276	2,549	2,813
9. Effektiv güc (*Ne*), *kVt*	748,3	877,2	1001,3	1121	1237
10. Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	261,9	223,4	195,8	174,8	158,5
11. Effektiv f.i.ə. (η_e)	0,322	0,3774	0,431	0,483	0,533
12. Yanma istiliyindən istifadə olunma əmsalı (ξ_z)	0,627	0,717	0,8064	0,896	0,986
13. Yanma müddəti (φ_z), rad./dər.	$\frac{1{,}122}{64{,}3}$	$\frac{0{,}9813}{56{,}3}$	$\frac{0{,}8723}{50}$	$\frac{0{,}7851}{45}$	$\frac{0{,}7137}{40{,}9}$

Cədvəl 4-də 6L20 dizel mühərriki *DT* markalı ağır yanacaqla işlədikdə forsunkanın başlanğıc püskürmə təzyiqindən asılı olaraq yerinə yetirilən riyazi eksperimentlərin nəticələri göstərilmişdir. Bu cədvəldən göründüyü kimi mühərrik ağır yanacaqla işlədikdə istər, yanma prosesini xarakterizə edən parametrlərin, istərsə də, mühərrikin indikator və effektiv göstəricilərinin dəyişmə qanunauyğunluqları, demək olar ki, standart dizel yanacağına analojidir.

Mühərrik motor yanacağı ilə işlədikdə, standart dizel yanacağından fərqli olaraq, yalnız induksiya periodunun (τ_i) həmişə azalması motor yanacağının buxarlanma qabiliyyətinin xeyli pisləşməsi ilə izah olnur.

Qeyd etmək lazımdır ki, riyazi eksperimentlər zamanı forsunkanın başlanğıc püskürmə təzyiqinin rasional qiyməti P_{fopt} = 45 *MPa* və yanacağın aşağı yanma istiliyi $Q_H = 42{,}654\ MC/kq$ qəbul olunmuşdur. Lakin, motor yanacağının aşağı yanma istiliyi cədvəl 1-ə görə $Q_H = 41{,}418\ MC/kq$ olmalıdır. Bundan başqa cədvəl 4-dən göründüyü kimi başlanğıc püskürmə təzyiqi böyüdükcə mühərrikin göstəriciləri yaxşılaşdığından forsunkanın başlanğıc püskürmə təzyiqinin rasional qiymətinin P_{fopt} = 50 *MPa* qəbul olunması daha məqsədəyğundur. Odur ki, bundan sonra riyazi eksperimentlər forsunkanın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının rasional qiymətləri uyğun olaraq P_{fopt} = 50 *MPa* və θ_{men} = $9{,}8^0$, eləcə də yanacağın aşağı yanma istiliyi $Q_H = 41{,}418\ MC/kq$ olduqda yerinə yetirilmiş və alınan nəticələr cədvəl 5 və cədvəl 6-da göstərilmişdir. Bu cədvəllərdən də göründüyü kimi mühərrik ağır yanacaqla işlədikdə həm, yanma prosesini xarakterizə edənparametrlərin, həm də, mühərrikin indikator və effektiv göstəricilərinin forsunkanın başlanğıc püskürmə təzyiqindən və yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq dəyişmə qanunauyğunluqları standart dizel yanacağında olduğu kimidir.

Cədvəl 5.

6L20 markalı baş gəmi dizeli motor yanacağı ilə işlədikdə onun əsas göstəricilərinin forsunkanın başlanğıc püskürmə təzyiqindən asılı olaraq dəyişməsi

(P_{fopt}=*50 MPa;* $\theta_{men} = 9{,}8^0$; *n=1000 dəq*$^{-1}$; $\eta_m = 0{,}85$; $\rho_y = 900\ kq/m^3$; Q_H = *41,418 MC/kq*)

Göstəricilər	**P_{fx}, *MPa***				
	40	**45**	**50**	**55**	**60**
1. Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	13,56	15,57	17,73	19,94	22,19
2. Yanmanın maksimum temperaturu (T_z), *K*	1558	1722	1884	2044	2200
3. İndikator f.i.ə. (η_i)	0,393	0,451	0,508	0,563	0,616
4. İnduksiya periodu ($\tau_i \cdot 10^3$), *san.*	0,841	0,748	0,673	0,612	0,561
5. Orta indikator təzyiqi (P_i), *MPa*	2,013	2,313	2,604	2,886	3,159
6. İndikator gücü (N_i), *kVt*	885,3	1017	1145	1269	1390
7. Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	221,3	192,6	171,1	154,4	141,1
8. Orta effektiv təzyiq (P_e), *MPa*	1,711	1,966	2,213	2,453	2,685
9. Effektiv güc (*Ne*), *kVt*	752,5	864,5	973,3	1078,7	1181,5
10. Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	260,4	226,6	201,3	181,6	166,0
11. Effektiv f.i.ə. (η_e)	0,334	0,383	0,432	0,479	0,524
12. Yanma istiliyindən istifadə olunma əmsalı (ξ_z)	0,645	0,726	0,806	0,887	0,968
13. Yanma müddəti (φ_z), *rad./dər.*	$\frac{1{,}09}{62{,}5}$	$\frac{0{,}969}{55{,}5}$	$\frac{0{,}872}{50}$	$\frac{0{,}793}{45{,}5}$	$\frac{0{,}727}{41{,}7}$

Cədvəl 6.

6L20 markalı baş gəmi dizeli motor yanacağı ilə işlədikdə onun əsas göstəricilərinin yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq dəyişməsi

(P_{fo}=50 MPa; n=1000 dəq^{-1}; η_m=0,85; ρ_y=900 kq/m^3, Q_H = 41,418 MC/kq)

Göstəricilər	θ_{men}, dər. Y.Ö.N.-ə qalmış				
	4,8	**9,8**	**14,8**	**19,8**	**24,8**
1.Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	14,9	17,73	20,36	22,57	24,1
2.Yanmanın maksimum temperaturu (T_z), *K*	1837	1884	1940	1998	2044
3.İndikator f.i.ə. (η_i)	0,4881	0,508	0,5221	0,5306	0,5353
4.İnduksiya periodu ($\tau_i \cdot 10^3$), *san.*	0,6074	0,6731	0,8038	1,112	1,567
5.Orta indikator təzyiqi (P_i), *MPa*	2,502	2,604	2,676	2,720	2,744
6.İndikator gücü (N_i), *kVt*	1101	1145	1177	1196	1207
7.Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	178,1	171,1	166,5	163,8	162,4
8.Orta effektiv təzyiq (P_e), *MPa*	2,127	2,213	2,275	2,312	2,332
9.Effektiv güc (N_e), *kVt*	935,9	973,3	1000,5	1016,6	1026
10.Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	209,5	201,3	195,9	192,7	191,1
11.Effektiv f.i.ə. (η_e)	0,415	0,432	0,444	0,451	0,455

Mühərrik dizel və motor yanacaqları ilə işlədikdə onun əsas göstəricilərini müqayisə etmək üçün cədvəl 7- dən istifadə etmək daha əlverişlidir. Bu cədvəldən aydın olur ki, mühərrik motor yanacağı ilə işlədikdə yanmanın maksimum təzyiqi (P_z) və maksimum temperaturu (T_z) uyğun olaraq 0,83 *MPa* (4,47 %) və 108*K* (5,4%), orta indikator təzyiqi (P_i) 0,23 *MPa* (8,12%), yanma istiliyindən istifadə olunma istiliyi (ξ_z) 0,05 vahid (5,8%) azalmış, mühərrikin xüsusi indikator və effektiv yanacaq sərfləri (g_i və g_e) uyğun olaraq 13,9 $\frac{q}{kVt \cdot saat}$ (8,8 %) və 16,3 $\frac{q}{kVt \cdot saat}$ (7,5%) artmış, indikator gücü (N_i) və effektiv güc (*Ne*) uyğun olaraq 102 *kVt* (8,2%) və 86,7*kVt* (8,2%) aşağı düşmüşdür. Mühərrikin qənaətliliyinin pisləşməsi, eləcə də gücünün azalması motor yanacağının buxarlanma qabiliyyətinin, yanıcı qarışığın hazırlanma keyfiyyətinin və yanma prosesinin pisləşməsi ilə izah olunur. Buradan göründüyü kimi, istismar şəraitində mühərrikin gücünü dizel yanacağında olduğu səviyyədə saxlamaq üçün, motor yanacağından istifadə etdikdə tsikllik yanacaq verilişini mühərrikin gücünün azaldığı hədlərdə, yəni, təxminən 8 ÷ 9,5% artırmaq lazımdır.

Təklif olunan hesablama metodikasında tsikllik yanacaq verilişi aşağıdakı ifadə ilə təyin edilir:

$$g_{ts} = {}^{G_h}/_{(30 \cdot n \cdot \alpha \cdot l_0 \cdot i)}, \; kq/tsikl$$

burada G_h –mühərrikin saatlıq hava sərfi, *kq/saat*; *n*–mühərrikin dövrlər sayı, *dəq*$^{-1}$; α – hava artıqlıq əmsalı; l_0 – 1 *kq* yanacağın tam yanması üçün tələb olunan nəzəri hava miqdarı, *kq/kq*; *i* – mühərrikin silindrlərinin sayıdır.

Bu ifadədən göründüyü kimi, tsikllik yanacaq verilişini artırmaq üçün hava artıqlıq əmsalını azaltmaq lazımdır. Riyazi hesablamada hava artıqlıq əmsalının *9,27%* azaldılması tsikllik yanacaq verilişinin $g_{ts.}$=1,305·10^{-3} *kq/tsikl* – dən $g_{ts.}$=1,426·10^{-3} *kq/tsikl* - ə qədər artmasına səbəb olmuşdur ki, bu da mühərrikin indikator və effektiv güclərinin standart dizel yanacağında olan qiymətlərə qədər yüksəlməsinə kifayət etmişdir. Cədvəl 7-dən göründüyü kimi $g_{ts.}$=1,426·10^{-3} *kq/tsikl* olduqda motor yanacağı ilə işləyərkən mühərrikin digər göstəriciləri (P_z, T_z, P_i və P_e) də standart dizel yanacağında olan qiymətlərlə, demək olar ki, üst-üstə düşmüşdür. Bu zaman xüsusi indikator yanacaq sərfinin artması, indikator və effektiv f.i.ə.-lərin azalması mühərrik motor yanacağı ilə işlədikdə yanma istiliyindən istifadə olunma əmsalının (ξ_z) kiçilməsi və yanma prosesinin pisləşməsi ilə izah olunur.

Cədvəl 7.

6L20 markalı baş gəmi mühərriki dizel və motor yanacağı ilə işlədikdə onun əsas göstəricilərinin müqayisəsi

Göstəricilər	Yanacağın növü		
	Standart dizel yanacağı	Motor yanacağı ($g_{ts.}$=1,305·10^{-3} *kq/tsikl*)	Motor yanacağı ($g_{ts.}$=1,426·10^{-3} *kq/tsikl*)
1. Yanmanın maksimum təzyiqi (P_z), *MPa*	18,56	17,73	18,55
2. Yanmanın maksimum temperaturu (T_z), *K*	1992	1884	1983
3. Orta indikator təzyiqi (P_i), *MPa*	2,834	2,604	2,837
4. İndikator gücü (N_i), *kVt*	1247	1145	1248
5. Xüsusi indikator yanacaq sərfi (g_i), $\frac{q}{kVt \cdot saat}$	157,2	171,1	171,7
6. Orta effektiv təzyiq (P_e), *MPa*	2,410	2,213	2,412
7. Effektiv güc (*Ne*), *kVt*	1060	973,3	1060,8
8. Xüsusi effektiv yanacaq sərfi (g_e), $\frac{q}{kVt \cdot saat}$	185	201,3	202
9.İndikator f.i.ə. (η_i)	0,537	0,508	0,5063
10. Effektiv f.i.ə. (η_e)	0,456	0,432	0,43
11.Yanma istiliyindən istifadə olunma əmsalı (ξ_z)	0,856	0,806	0,806
12. Yanma müddəti (φ_z), rad./dər.	$\frac{0,872}{50}$	$\frac{0,872}{50}$	$\frac{0,872}{50}$

Nəticə. Yanma prosesinin parametrlərinin, eləcə də mühərrikin indikator və effektiv göstəricilərinin qənaətbəxş olması baxımından riyazi eksperimentlərin nəticələrinə görə aydın olur ki, 6L20 markalı baş gəmi mühərriki standart dizel yanacağı ilə işlədikdə, forsunkanın başlanğıc püskürmə təzyiqinin və yanacaq verilməsinin qabaqlama bucağının, uyğun olaraq, *45MPa* və $9,8^0$ qiymətlərini rasional qiymətlər kimi qəbul etmək olar. Bu nöqteyi-nəzərdən, mühərrik motor yanacağı ilə işlədikdə, forsunkanın başlanğıc püskürmə təzyiqinin rasional qiymətinin *50 MPa*, yanacaq verilməsinin qabaqlama bucağının rasional qiymətinin isə $9,8^0$ qəbul olunması əlverişli hesab olunur. Lakin bu halda mühərrikin effektiv gücü azaldığından, onu dizel yanacağında olan həddə çatdırmaq üçün mühərrik motor yanacağı ilə işlədikdə tsikllik yanacaq verilişini təxminən 8 ÷ 9,5% artırmaq lazımdır.

Ədəbiyyat

1. A.Ş.İsmayılov, İ.S.Axundov. 6L20 markalı baş gəmi dizelinin işçi tsiklinin hesablama metodikası// Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, № 1, 2018, s. 94-99.
2. T.e.n., dosent A.Ş. İsmayılov, İ.S. Axundov. Dördtaktlı gəmi dizelinin işçi tsiklini hesablama metodikası və onun riyazi modeli// Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, № 1, 2015, s.92-96.
3. İ.S.Axundov, A.Ş.İsmayılov, H.Ə.Məmmədov. Yanacağın başlanğıc püskürmə təzyiqindən və yanacaq verilməsinin qabaqlama bucağından asılı olaraq 6L20 markalı baş gəmi mühərrikinin işçi tsiklinin nəzəri tədqiqi.// Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, № 1, 2018, s.64-73.
4. В.Е.Лазарев, Г.В.Ломакин, Е.А. Лазарев. Параметры процесса сгорания топлива и показатели рабочего цикла дизеля при изменении давлении начала впрыскивания топлива. //Вестник ЮУрГУ, №11, 2011, с.83-86.
5. И.В.Парсаданов, С.И.Третьяков. Оценка влияния угла начала подачи топлива на показатели динамической напряженности и топливной экономичности быстроходного дизеля. Двигатели внутреннего сгорания, № 1, 2004 с.30-33.

Tövsiyə edib: t.ü.f.d., dos. ***A.Ş.İsmayılov***

UOT 621.431

ELEKTRON İDARƏETMƏLİ YENİ KONSTRUKSİYALI FORSUNKASI OLAN BİLAVASİTƏ SİLİNDRƏ BENZİN PÜSKÜRMƏ SİSTEMİNDƏKİ HİDRODİNAMİK PROSESLƏRİN RİYAZİ MODELİ VƏ ONUN TƏTBİQİNİN BƏZİ NƏTİCƏLƏRİ

Kərimov Z.X., Cəfərli M.K.

Azərbaycan Texniki Universiteti,
Bakı şəh., H.Cavid pr., 25
E-mail: ird@aztu.edu.az

Xülasə. *Məqalədə bilavasitə silindrə benzin püskürməli və forkamer-məşəllə alışdırmalı mühərriklərin göstəricilərinin yaxşılaşdırılması məqsədilə təklif olunmuş yeni işçi prosesin spesifik tələblərinə cavab verən elektron idarəetməli pyezo-intiqallı yeni konstruksiyalı forsunkanın konstruksiyasına və iş prinsipinə baxılmışdır. Təzyiq akkumulyatorlu bilavasitə silindrə benzin püskürmə sisteminin, o cümlədən sistemin yeni konstruksiyalı forsunkasının həcmləri və borularındakı hidrodinamik proseslərin riyazi modeli nəzərdən keçirilmiş, riyazi modelin tətbiqi ilə sistemdəki hidrodinamik proseslərin hesabi tədqiqinin bəzi nəticələri verilmişdir. Hesabi tədqiqatların nəticələri işlənmiş yeni konstruksiyalı forsunkanın iş qabiliyyətli olmasını, onun yeni işçi prosesin tələblərinə tam cavab verməsini, beləliklə də konstruksiyanın praktiki reallaşdırılmasının və onun eksperimental tədqiqinin məqsədəuyğun olduğunu göstərmişdir.*

Abstract. *The construction and operation principle of electronically controlled and piezo actuating new designed injector that meets the specific requirements of a new working process proposed for improving the performances of direct gasoline injection and prechamber-torque ignition engines are considered. The main properties of the mathematical model of the direct gasoline injection system with pressure accumulator, including hydrodynamic processes within the volumes of the nozzle and in the pipelines of the system, as well as some results of calculation investigations of the hydrodynamic processes occurring in the system are given. The results of computational investigations show the operability of the developed construction, the satisfaction of its characteristics to requirements of the working process, the feasibility of practical implementation of construction and its experimental application.*

Аннотация. *В статье рассмотрены конструкция и принцип работы форсунки новой конструкции с электронным управлением и пьезоприводом, удовлетворяющей специфичным требованиям нового рабочего процесса, предложенного с целью улучшения показателей двигателей с непосредственным впрыском бензина в цилиндр и форкамерно-факельным зажиганием. Приведены основные положения математической модели аккумуляторной системы непосредственного впрыска бензина в цилиндр, в том числе, гидродинамических процессов в полостях форсунки новой конструкции и в трубопроводах системы, а также некоторые результаты расчетного исследования гидродинамических процессов, происходящих в системе. Результаты расчетных исследований показывают работоспособность разработанной конструкции, удовлетворение ее характеристик требованиям рабочего процесса, целесообразность практической реализации конструкции и ее экспериментального применения.*

Açar sözlər: *bilavasitə benzin püskürməli mühərrik, təzyiq akkumulyatorlu benzin püskürmə sistemi, elektron idarəetməli forsunka, hidrodinamik proseslər, hesabi eksperiment metodu*

Key words: *direct petrol injection engine, accumulator fuel injection system, electronically controlled injector, hydrodynamic processes, computational experiment method*

Ключевые слова: *двигатель с непосредственным впрыском бензина, система впрыска бензина с аккумулятором давления, электронно-управляемая форсунка, гидродинамические*


процессы, метод вычислительного эксперимента

Giriş. Məlum olduğu kimi, müasir dövrdə daxili yanma mühərriklərinin texniki-iqtisadi və eləcə də ekoloji göstəriciləri qarşısında sərt tələblər qoyulur. Bu tələbləri təmin etmək energetikanın aktual problemlərindən biridir. Bu problemi mühərrikin konstruksiya edilməsi nöqteyi-nəzərindən həll etmək üçün mühərrikin işçi prosesini təkmilləşdirmək lazımdır. Buna görə də Azərbaycan Texniki Universitetinin (AzTU) "Avtomobil texnikası" kafedrasında bilavasitə silindrə benzin püskürməli və forkamer-məşəllə alışdırmalı mühərrikin yeni işçi prosesi ixtira səviyyəsində təklif olunmuşdur [1].

Məsələnin qoyuluşu. Təklif olunmuş yeni işçi proses mühərrikin yanacaq püskürmə sisteminə bir sıra spesifik tələblər qoyur. Bilavasitə silindrə benzin püskürməli və forkamer-məşəllə alışdırmalı mühərriklərin ənənəvi yanacaq püskürmə sistemləri və eləcə də bu sistemlərin forsunkaları həmin tələblərin bir çoxuna cavab vermir [2]. Buna görə də [3] işində yeni işçi prosesli mühərrik üçün lazımi tələblərə cavab verən yeni konstruksiyalı forsunka işlənmişdir. Bu forsunka pyezointiqallı elektron idarəetməli forsunka olub, təzyiq akkumulyatorlu benzin püskürmə sisteminin tərkibində işləmək üçün nəzərdə tutulmuşdur.

Elektron idarəetməli yeni konstruksiyalı forsunka (şək. 1.) idarəedici klapanın həcmini (2) təzyiq akkumulyatorunun həcmi ilə yüksək təzyiqli yanacaq borusu vasitəsilə birləşdirən giriş kanalına (1), idarəetmə kamerini (6) idarəedici klapanın həcmi ilə birləşdirən idarəedici klapana (4) və klapanlı-soplolu tozlandırıcının həcmi (8) ilə birləşdirən idarəedici kanala (7) və yanacağı püskürmək üçün püskürdücü klapana (11) malikdir.

Forsunka aşağıdakı kimi işləyir. Yanacaq təzyiq akkumulyatorundan idarəedici klapanın həcminə yüksək təzyiqli yanacaq borusundan və giriş kanalından keçərək daxil olur. İdarəedici klapanın bağlı vəziyyətində bu klapanın həcmindəki yanacaq akkumulyatordakı təzyiq altında olur. İdarəedici klapanın həcmindəki yanacağın təzyiqinin və klapanın yayının (3) elastiklik qüvvəsinin hesabına klapanın konusu öz yəhərinə sıxılaraq, yanacağın idarəetmə kamerinə yolunu bağlayır. İdarəetmə kamerinin və klapanlı-soplolu tozlandırıcının həcmlərində, eləcə də idarəetmə kanalında yanacaq əvvəlki püskürmə siklindən qalan qalıq təzyiq altında olur. Bu qalıq təzyiq püskürdücü klapanın (11) açılma təzyiqindən aşağıdır. Buna görə də pyezoelementə (5) idarəedici elektrik gərginliyinin verilmədiyi müddətdə püskürdücü klapan bağlı vəziyyətdə qalır.



Şək. 1. *Elektron idarəetməli pyezointiqallı yeni konstruksiyalı forsunkanın prinsipial sxemi [3]*

Elektron idarəetmə blokundan idarəedici gərginlik verildikdə pyezoelementlər paketi genişlənir və idarəedici klapana təsir göstərir. Nəticədə idarəedici klapan açılaraq yüksək təzyiqli yanacağın idarəetmə kamerinə gedən yolunu açmış olur. Yanacaq idarəetmə kanalından keçərək, idarəetmə kamerindən klapanlı-soplolu tozlandırıcının həcminə yüksək təzyiq altında daxil olur və nəticədə bu həcmdə təzyiq yüksəlir. Buradakı təzyiq püskürdücü klapanın açılma təzyiqindən yüksək olduqda, püskürdücü klapan açılır və yanacaq püskürülməsi baş verir.

Elektron idarəetmə blokundan verilən idarəedici elektrik impulsunun kəsilməsi ilə idarəedici klapan əvvəlki vəziyyətinə qayıdaraq, idarəedici kamerə yanacağın daxil olmasını kəsir. Bunun nəticəsində və həmçinin klapanlı-soplolu tozlandırıcının həcmindən yanacağın silindrə püskürülməsi-

nin davam etməsi nəticəsində, klapanlı-soplolu tozlandırıcının həcmində yanacağın təzyiqi düşür. Bu həcmlə əlaqədə olan idarəetmə kanalında və idarəetmə kamerində də təzyiq düşür. Klapanlı-soplolu tozlandırıcının həcmində təzyiqin püskürdücü klapanın bağlanma təzyiqindən aşağı düşməsi zamanı bu klapan bağlanır, nəticədə yanacağın püskürülməsi kəsilir. İdarəetmə kamerində və klapanlı-soplolu tozlandırıcının həcmində, eləcə də idarəetmə kanalında püskürdücü klapanın açılma təzyiqindən aşağı olan müəyyən qalıq təzyiq yaranır.

Təklif olunmuş yeni konstruksiyalı forsunkanın praktiki reallaşdırılmasından əvvəl onun iş qabiliyyəti qiymətləndirilməli və konstruktiv parametrlərinin optimal qiymətləri müəyyənləşdirilməlidir. Bunun üçün sistemdəki və o cümlədən yeni konstruksiyalı forsunkadakı hidrodinamik proseslər hesabi eksperimentlər vasitəsilə tədqiq olunmalıdır. Buna görə də təqdim olunan işin məqsədi elektron idarəetməli yeni konstruksiyalı forsunkaya malik yanacaq püskürmə sisteminin boruları və həcmlərindəki hidrodinamik prosesləri riyazi modelləşdirmək və həmin riyazi modeli tətbiq etməklə sistemdəki hidrodinamik prosesləri tədqiq etməkdir.

Məsələnin həlli. Elektron idarəetməli yeni konstruksiyalı forsunkası olan təzyiq akkumulyatorlu benzin püskürmə sistemindəki hidrodinamik proseslər riyazi modelləşdirilərkən [4, 5] işlərində təklif olunmuş yanacaq püskürmə sistemindəki hidrodinamik proseslərin maye fazasının bütövlüyünün qırılmasının nəzərə alınması ilə modelləşdirilməsi metodu əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, həmin riyazi modelləşdirmə metodunun adekvatlığı əvvəllər müxtəlif püskürmə sistemlərində dəfələrlə yoxlanılmış və kifayət qədər yüksək adekvatlığa malik olması sübut olunmuşdur.

Riyazi modeldə yanacaq püskürmə sisteminin borular və kanallarındakı mayenin qərarlaşmamış axını konservativ dəyişənlərlə ifadə olunmuş qərarlaşmamış birölçülü axın tənlikləri – kəsilməzlik və hərəkət miqdarı tənlikləri sistemi ilə təsvir olunmuşdur [5]:

$$\frac{\partial \rho}{\partial \tau} + \frac{\partial (\rho w)}{\partial x} = 0 , \tag{1}$$

$$\frac{\partial (\rho w)}{\partial \tau} + \frac{\partial (\rho w^2 + p)}{\partial x} = -\frac{\lambda_T}{2 d_T} \rho w^2 , \tag{2}$$

Burada

ρ – borudakı mühitin sıxlığı;
p – borudakı mühitin təzyiqi;
w – axının sürəti;
x – borunun uzunluğu boyunca koordinat;
τ – zaman;
λ_T, d_T – uyğun olaraq, borunun hidravlik müqavimət əmsalı və daxili diametridir.

(1) və (2) tənliklərində mühitin sıxlığı ρ və axının saniyəlik hərəkət miqdarı ρw konservativ dəyişənlərdir. (2) tənliyinin sağ tərəfindəki hədd isə borunun hidravlik müqavimətini dəf etməyə sərf olunan hərəkət miqdarını nəzərə alır.

Mühitin təzyiqini təyin etmək üçün (1) və (2) tənliklərinə məlum ifadə əlavə olunur [5]:

$$\frac{\partial p}{\partial \tau} = c^2 \frac{\partial \rho}{\partial \tau} , \tag{3}$$

burada c – axında təzyiq dalğasının yayılma sürətidir.

Sistemin həcmlərindəki hidrodinamik proseslər müvafiq sərhəd şərtləri tənlikləri ilə təsvir olunmuşdur. Məsələn, forsunkanın idarəedici klapanının həcmi üçün sərhəd şərti tənliyi – bu həcmdə olan maye kütləsi üçün kütlə balansı tənliyi aşağıdakı kimidir [4]:

$$\frac{dG_i}{d\tau} = f_{gk}\rho_{gkç}w_{gkç} - \mu_{ikl}\, f_{ikl}\rho_{ik}w_{ik}. \qquad (4)$$

Burada:

G_i – forsunkanın idarəedici klapanının həcmindəki yanacağın kütləsi;

f_{gk} – giriş kanalının en kəsik sahəsi;

$\mu_{ikl}\, f_{ikl}$ – idarəedici klapanın effektiv keçid sahəsi;

$\rho_{gkç}$ və ρ_{ik} – uyğun olaraq, giriş kanalının çıxışındakı və idarəetmə kamerindəki mayenin sıxlığı;

$w_{gkç}$ və w_{ik} – uyğun olaraq, giriş kanalının çıxışındakı və idarəetmə kamerindəki mayenin axın sürətləridir.

Borunun elementar hesabi məntəqələrində və eləcə də sərhəd həcmlərində sıxlığın $\rho \geq \rho_0$ qiymətində hesab edilir ki, mühit birfazalı maye mühitidir və (3) ifadəsindən mühitin təzyiqinin cari qiyməti müəyyənləşdirilir. $\rho < \rho_0$ olduqda isə mühit ikifazalı qaz-maye mühiti hesab olunur və təzyiq aşağıdakı kimi təyin edilir [6]:

$$p = \frac{\rho\rho_0\chi}{\rho_0 - \rho(1-\chi)}\ . \qquad (5)$$

Burada:

ρ_0 – atmosfer təzyiqində maye yanacağın sıxlığı;

χ – Henri qanunundakı havanın yanacaqda həllolma qabiliyyətini göstərən əmsaldan asılı olaraq yanacağın verilən temperaturu üçün təyin edilən sabit əmsal.

Yanacaq sisteminin boruları və kanallarındakı hidrodinamik prosesləri təsvir edən riyazi model tənlikləri ((1) və (2) tənlikləri) birölçülü xüsusi törəməli diferensial tənliklərdir. Bu tənliklər S.K.Qodunovun "ixtiyari kəsilmənin dağılması" adlanan sonlu fərqlər metodu ilə həll edilmişdir. Həcmlərdəki hidrodinamik prosesləri təsvir edən sərhəd şərtləri tənlikləri (4) adi diferensial tənliklərdir. Bu tənliklər Eylerin I tərtib sonlu fərqlər sxemi vasitəsilə həll edilmişdir. Hərəkət edən mexaniki elementlərin, yəni klapanların hərəkət tənlikləri isə Nyutonun II qanunu əsasında tərtib olunmuş və Eylerin I tərtib sonlu fərqlər sxemi vasitəsilə həll edilmişdir.

Qeyd etmək lazımdır ki, riyazi modeldə püskürmə sisteminin boru, kanal və həcmlərindəki hidrodinamik proseslərə təsir göstərən bütün amillər nəzərə alınmışdır.


Tərtib olunmuş riyazi model elektron idarəetməli yeni konstruksiyalı forsunkası olan bilavasitə silindrə benzin püskürmə sistemindəki hidrodinamik proseslərin tədqiqi üçün tətbiq olunmuşdur. Bu məqsədlə riyazi model kompüter proqramı şəklində reallaşdırılmışdır və onun vasitəsilə bir sıra hesabi eksperimentlər aparılmışdır.

Hesabi tədqiqatlar müxtəlif rejimlərdə aparılmışdır. Belə ki, pyezo-aktuatora idarəedici impulsun verilmə və kəsilmə anının dəyişdirilməsi ilə püskürmənin davamiyyət müddəti, deməli həm də püskürülən yanacağın sikllik miqdarı geniş hədlərdə dəyişdirilmişdir. Bundan başqa, həm də dirsəkli valın dövrlər sayı və yüksək təzyiqli yanacaq nasosunun çıxışındakı təzyiq (deməli həm də təzyiq akkumulyatorundakı yanacağın təzyiqi) geniş hədlərdə dəyişdirilmişdir. Nəticədə zamandan və ya dirsəkli valın dönmə bucağından asılı olaraq müxtəlif rejimlərdə sistemin həcmlərindəki və borularının bütün hesabi kəsiklərindəki yanacağın təzyiqinin və sürətinin dəyişməsi, eləcə də hərəkətli elementlərin (klapanların) hərəkət əyriləri haqqında müfəssəl informasiyalar əldə olunmuşdur.

Alınmış nəticələrin analizi. Riyazi modelləşdirmənin bəzi nəticələri şək. 2-də göstərilmişdir.

Hesabi tədqiqatların nəticələrinin qrafik vizuallaşdırılması göstərir ki, qazpaylama valının dönmə bucağının $\varphi = 30°$ qiymətində idarəedici klapanın qalxmağa başlaması və bunun hesabına yanacağın idarəedici klapanın həcmindən idarəetmə kamerinə axması nəticəsində idarəetmə kamerində təzyiq yüksəlməyə başlayır, idarəedici klapan həcmində isə təzyiqin düşməsi və bundan sonra intensiv təzyiq rəqsləri müşahidə edilir. Bu təzyiq rəqsləri forsunkanın giriş kanalı və yüksək

təzyiqli yanacaq borusu vasitəsilə təzyiq akkumulyatoruna geri qayıdır. Təzyiq akkumulyatorunun həcminin idarəedici klapanın həcmindən xeyli böyük olması səbəbindən burada təzyiq rəqsləri böyük olmayan amplitudaya malik olur.



Şək. 2. *Təzyiq akkumulyatorundakı (Pakk), idarəedici klapanın həcmindəki (Pf), idarəetmə həcmindəki (Py) və tozlandırıcının həcmindəki (Pc) yanacağın təzyiqinin və eləcə də pyezo-aktuatorla idarəedici klapanın (z) və püskürdücü klapanın gedişinin (h) mühərrik valının dönmə bucağından (Fi) asılı olaraq dəyişmə əyriləri (Qrafiklər yüksək təzyiqli yanacaq nasosunun çıxışındakı təzyiqin 80 bar qiymətinə uyğundur)*

Qrafikdən tozlandırıcının həcmindəki təzyiq əyrisinin formasının elektron idarəetməli forsunkaların tozlandırıcı həcmlərindəki təzyiq əyrisinin xarakterik formasına uyğunluğu müşahidə olunur. Görünür ki, burada təzyiq əvvəlki püskürmə siklindən qalan təqribən *10 bar*-a bərabər olan qalıq təzyiqdən başlayaraq yüksəlir. Tozlandırıcının həcmi ilə idarəetmə həcminin bir-biri ilə en

kəsik sahəsi kiçik olan idarəedici kanal vasitəsilə əlaqələndirilməsi səbəbindən, bu iki həcmin təzyiq əyrilərinin forması arasında kiçik fərq və kiçik təzyiq düşküsü olur. İdarəedici klapanın bağlanmasından və bunun hesabına klapanlı-soplolu tozlandırıcının həcminə yanacaq verilişinin kəsilməsindən sonra bu həcmdən püskürdücü klapan vasitəsilə püskürülən yanacaq çıxdıqca, təzyiq düşür və püskürdücü klapan püskürməni kəsərək bağlanır. Püskürmə prosesinin kəsilməsi ilə hər iki həcmdə təzyiqlər bərabərləşir və təzyiq rəqsləri sönərək, həmin qalıq qiymətində qərarlaşır.

Pyezo-aktuatorla idarəedici klapanın düz və əks istiqamətdə birgə hərəkətə başlaması anları püskürmənin davamiyyət müddətinin və beləliklə də, püskürülən yanacağın sikllik miqdarının idarəolunması üçün idarəedici təsirlərdir. Buna görə də bu anlar riyazi modelə verilənlər qismində daxil edilir. Püskürdücü klapan isə ona təsir edən təzyiqlər fərqi nəticəsində hərəkət edir.

Göründüyü kimi, idarəedici klapanın hərəkətə gəlməsi ilə dərhal püskürdücü klapan hərəkət etməyə başlayır. Bunun özü çeviklik nöqteyi-nəzərindən təklif olunmuş konstruksiyanın kifayət qədər effektiv olmasını sübut edir. Lakin idarəedici klapanın bağlanması zamanı püskürdücü klapanın bağlanması müəyyən qədər gecikir. Belə ki, püskürdücü klapan tozlandırıcının həcmindən püskürülən yanacağın çıxışı nəticəsində burada təzyiqin düşməsi səbəbindən bağlanmağa başlayır. Bu cəhət püskürmə prosesinin başlanğıc fazası ilə müqayisədə son fazasının çevikliyini azaldır. Lakin, buna baxmayaraq, forsunkanın belə konstruksiyasında püskürmə prosesi tam idarəolunandır və konstruksiya lazımi tələblərə cavab verir. Bunu həm də püskürmə prosesinin kiçik təzyiq rəqsləri ilə müşayiət olunması və püskürdücü klapanın *0,25 mm*-ə qədər kifayət qədər böyük gedişinə baxmayaraq, püskürmə prosesi ərzində həmin klapanın etibarlı halda dayaqda oturması sübut edir.

Nəticə. Elektron idarəetməli yeni konstruksiyalı forsunkası olan bilavasitə silindrə benzin püskürmə sistemindəki hidrodinamik proseslərin riyazi model vasitəsilə aparılmış hesabi eksperimentləri təklif olunan yeni konstruksiyalı forsunkanın iş qabiliyyətli olmasını, işçi prosesin qoyduğu bütün tələbləri təmin etməsini, eləcə də konstruksiyanın praktiki reallaşdırılmasının və onun sonrakı eksperimental tədqiqatlarının aparılmasının məqsədə uyğunluğunu tam sübut etmişdir.

Ədəbiyyat

1. Керимов З.Х., Мамедзаде Х.Ш., Джафарли М.К. Форкамерный двигатель с непосредственным впрыском топлива в цилиндр и принудительным зажиганием. Евразийский Патент № 023968 (Номер заявки 201400220). (Дата приоритета с 17.12.2013) Бюллетень ЕАПВ 7′2016.
2. Керимов З.Х., Джафарли М.К. Системы впрыска бензина с аккумулятором давления и проблемы их применения в форкамерно-факельном двигателе с новым рабочим процессом // Azərbaycan Texniki Universiteti, Elmi əsərlər, Texnika elmləri, AzTU, Bakı, 2016, № 4. Cild 1. səh. 68-74.
3. Керимов З.Х., Джафарли М.К. Разработка новой конструкции электронно-управляемой форсунки для двигателя с непосредственным впрыском бензина и форкамерно-факельным зажиганием // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. ADNSU. Bakı. 2017. Cild 19, № 3 (107). səh. 63-71.
4. Керимов З.Х. Математическое моделирование гидродинамических процессов с учетом двухфазной среды в граничных полостях дизельной системы впрыска топлива // Авиационно-космическая техника и технология. Харьков. 2004. Вып.8 (16). с. 63–69.
5. Керимов З.Х. Некоторые результаты математического моделирования волновых процессов в двухфазной среде в дизельной топливовпрыскивающей системе // Двигатели внутреннего сгорания. Харьков, Украина. 2004. №1. с. 20-24.
6. Керимов З.Х., Годжаев К.М. Ускоренный метод математического моделирования процесса впрыска топлива в дизельных двигателях // Журн. “Механика-Машиностроение”. Министерство Образования Азербайджанской Республики. Баку. 2009. №2. с. 81-84.

Təvsiyə edib: t.ü.f.d., dos. ***A.Ş.İsmayılov***

UOT 621.436

6Ч12/14 MARKALI KÖMƏKÇİ GƏMİ MÜHƏRRIKININ SINAQ QURĞUSU VƏ SINAĞIN NƏTİCƏLƏRİNİN HESABLANMASI METODİKASI

Talıbov N.Ş., Rəhmanov M.X.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh, Z.Əliyeva küç., 18
E-mail:mugabil-rahmanov@mail.ru

Xülasə*. Məqalədə köməkçi mühərrik kimi istifadə olunan 6 silindrli, 4 taktlı, 6Ч12/14 markalı dizelin bazasında yaradılmış sınaq qurğusu, mühərrikin yanacaq, soyutma, yağlama və hava ilə işəsalma sistemləri, sınağın aparılması və onun nəticələrinin hesablanması metodikası barədə məlumat verilmişdir.*

Abstract*. The article deals üith the trial arrangement and the calculation methods of experimant ühich üas built on the base of 6 sylinder, 4 strohe 6Ч12/14 marched diesel engine used as an auxiliary one.*

Аннотация. *В статье приведены сведения по экспериментальной установке, созданной на базе 6-ти цилиндрового, четырехтактного, вспомогательного судового дизельного двигателя марки 6Ч12/14, о системах топлива, охлаждения, смазки и пуска двигателя, о методике проведения экспериментов и обработке его результатов.*

Açar sözlər*: sınaq qurğusu, köməkçi gəmi dizeli, yanacaq sistemi, soyutma sistemi, yağlama sistemi, işəsalma sistemi, saatlıq yanacaq sərfi, saatlıq hava sərfi, hava artıqlıq əmsalı, effektiv güc, xüsusi effektiv yanacaq sərfi*

Key words*: test device, technique, diesel, direct current, nozzle, motor potential, lub oil, fuel oil and coolinq system, the electric scheme Leonard*

Ключевые слова: *испытательная установка, вспомогательный судовой дизель, топливная система, система охлаждения, система смазки, система пуска, часовой расход топлива, часовой расход воздуха, коэффициент избытка воздуха, эффективная мощность, удельный эффективный расход топлива*

Giriş. Tədqiqat obyekti olaraq gəmilərdərdə köməkçi mühərrik kimi istifadə edilən 6 silindrli, 4 taktlı, 6Ч12/14 markalı dizel mühərriki seçilmişdir. Sınaq qurğusunun quraşdırılmasında məqsəd müxtəlif istismar parametrlərinin (ətraf mühit şəraitinin, dəniz suyu temperaturunun, yanacağın növünün dəyişməsinin, forsunkanın başlanğıc püskürməm təzyiqinin və s.) mühərrikin texniki-iqtisadi göstəricilərinə təsirinin sınaq yolu ilə tədqiq edilməsidir. Sınaq qurğusunda yerləşdirilən dizel mühərriki, gəmidə olduğu kimi, dəyişən cərəyan generatorunu hərəkətə gətirir və alınan elektrik enerjisi baş paylayıcı şitə verilir. Mühərrikin soyutma, yanacaq, yağlama və işəsalma sistemləri gəminin maşın zalında olan şəkildə həyata keçirilir. Bundan başqa yanacaq və hava sərflərinin, eləcə də mühərrikin dövrlər sayının və gücünün ölçülməsi üçün istifadə olunan avadanlıq və cihazlar sınaq olunan dizelin əsas iqtisai və enegetik göstəricilərinin təyin olunmasına, bu isə öz növbəsində, qarşıda qoyulan tədqiqat işlərinin aparılmasına imkan verir. Bu baxımdan məqalədə şərh olunan məsələləri aktual hesab etmək olar.

Əsas hissə. 6Ч12/14 markalı dizel mühərriki gəmilərdə 50 kVt gücə malik olan sabit və dəyişən cərəyan generatorlaına, o cümlədən, mərkəzdənqaçma nasoslarına hərəkət verməkk üçün istifadə edilir.

Mühərrikin əsas texniki-iqtisadi göstəriciləri aşağıdakı cədvəldə göstərilmişdir [1]:

Cədvəl

6 Ч 12/14 markalı mühərrikin əsas texniki-iqtisadi göstəriciləri

S/S	Göstəricilər	Qiymət
1.	Mühərrikin nominal gücü, kVt	59
2.	Nominal dövrlər sayı, dəq^{-1}	1500
3.	Silindrlərin sayı	6
4.	Silindrin diametri, mm	120
5.	Porşenin gedişi, mm	140
6.	Silindrin işçi həcmi, dm^3	1,583
7.	Porşenin orta sürəti, m/san	7
8.	Sıxma dərəcəsi	15
9.	Orta effektiv təzyiq, MPa	0,49
10.	Xüsusi effektiv yanacaq sərfi, q/(kVt saat)	245
11.	Motoresurs, saat	12000÷14000

Sınaq qurğusunun ümumi görünüşləri şəkil 1 və şəkil 2-də baş paylayıcı şitin ümumi görünüşü isə şəkil 3-də göstərilmişdir.

Sınaq olunan mühərrikin qida sisteminə sərfiyyat yanacaq çəni, kobud yanacaq süzgəci, alçaq təzyiqli yanacaq nasosu (ATYN), narın yanacaq süzgəci, yüksək təzyiqli yanacaq nasosu (YTYN), forsunkalar, yüksək və alçaq təzyiqli yanacaq boruları daxildir.



Şəkil 1. *Sınaq qurğusunun ümumi görünüşü*

Yanacaq ehtiyat çənindən öz axını ilə separatora daxil olur (seperator ehtiyat çənindən aşağıda yerləşmişdir) və separatorda təmizlənərək sərfiyyat çəninə vurulur. Sərfiyyat çəni təxminən 3 m hündürlükdə yerləşdiyindən yanacağın ATYN-ə verilməsi basqı hesabına əldə edilir.

Mühərrikin yağlama sistemi qapalı, dövri və nəm karterlidir. Yağlama sistemi mühərrikin sürtünən hissələrinə yağın təzyiq altında verilməsini təmin edir. Yağlama sistemindəki təzyiq və yağın temperaturu mühərrikin üzərındəki yoxlama cihazları şitində yeləşdirilən manometr və

termometrlə təyin edilir. Sınaq zamanı yağlama sistemindəki təzyiq və temperatur uyğun olaraq *0,18÷0,25 MPa* və $80 \div 90^0$ *S* hədlərində olmalıdır.



Şəkil 2. *Sınaq qurğusunun ümumi görünüşü*

Mühərrikin soyutma sistemi onun qızmış hissələrindən istiliyi aparmaqla soyutma sistemində normal temperatur rejimini saxlayır. Soyutma sistemi qapalı və açıq olmaqla iki konturludur. Silindr vtulkası, silindrlər başlığı və xaricetmə kollektoru qapalı sistemdəki soyuducu maye və yaxud şirin su ilə soyudulur. Qapalı konturdakı soyuducu maye və yaxud içməli su isə soyuducudan keçən açıq soyutma sisteminin suyu ilə soyudulur. Soyutma sistemin işinə yoxlama cihazları şitində yeləşdirilən manometr və termometrlə nəzarət edilir. Sınaq zamanı soyutma sistemindəki temperatur rejimi $70 \div 75^0$ *S* hədlərində saxlanılır.



Şəkil 3. *Baş paylayıcı şit*



Şəkil 4. *Yanacaq sərfinin ölçülməsi*

Sınaq qurğusunda saatlıq hava sərfi PГ100 -1 markalı rotasion qaz sayğacı ilə təyin edilir. Sayğac mühərrikə resiver vasitəsi ilə birləşdirilmişdir. Resiverin həcminin boyük olması sorma sistemində hava axınındakı təzyiq pulsasiyalarını söndürməyə imkan verir.

Dirsəkli valın dövrlər sayını məsafədən ölçmək üçün verici və ölçəndən ibarət olan taxometrdən istifadə olunur. Taxometrin vericisi YTYN-in intiqalında, ölçəni isə yoxlama cihazları şitində yerləşir. İntiqaldan vericiyə ötürmə ədədi 1:2-dir. TƏ1-3M markalı bu taxometrin ölçmə diapazonu 500÷3000 dəq-1-ə bərabərdir.

Ətraf mühitin təzyiqi БАММ-1 markalı barometr, temperaturu isə civəli termometrlə ölçülür.

Mühərriki işə salmaq üçün sıxılmış hava sistemindən istifadə edilir. Bu sistemə hava balonları, işəsalma kranları, havapaylayıcısı, altı ədəd avtomatik işəsalma klapanları və hava boruları daxildir. Hava balonlarına sıxılmış hava ikipilləli kompressorun köməyi ilə doldurulur.

Motor sınaqlarının mühərrikin nominal dövrlər sayında ($n=1500$ *dəq*$^{-1}$) aparılması nəzərdə tutulur. Bu zaman onun yüklənməsi laboratoriyada olan avadanlıq və mexanizmlərinin ardıcıl olaraq işə qoşulması ilə həyata keçriləcəkdir (*50 kVt*-a qədər).

Təcrübələrin nəticələrinə əsasən sınaq olunan mühərrikin əsas gostəriciləri aşağıdakı kimi hesablanır:

1. Mühərrikin saatlıq yanacaq sərfi həcmi üsulla (şəkil 4.) təyin edilir və aşağıdakı düsturla hesablanır [2]:

$$G_y = 3{,}6 \cdot \Delta V_y \cdot \rho_y / \tau_y \quad kq/saat \tag{1}$$

burada ΔV_y – qəbul olunmuş yanacaq dozasının həcmi, sm^3; ρ_y – yanacağın sıxlığı, q/sm^3;

τ_y – yanacaq dozasının sərf olunma müddətidir, *san*.

2. Mühərrikin saatlıq hava sərfi qaz sayğacı vasitəsilə (şəkil 2.) aşağıdakı kimi təyin edilir:

$$G_h = 3600 \cdot \Delta V_h \cdot \rho_h / \tau_h, \quad kq/saat \tag{2}$$

burada ΔV_h - qəbul olunmuş hava dozasının həcmi, m^3; ρ_h - havanın sıxlığı, kq/m^3 ; τ_h – qəbul edilmiş hava dozasının silindrə daxil olduğu vaxtdır, *san*.

Havanın sıxlığı ətraf mühit təzyiqindən və temperaturundan asılı olaraq aşağıdakı kimi tapılır:

$$\rho_h = \frac{P_0 \cdot 10^6}{R_h \cdot T_0}, \quad kq/m^3 \tag{3}$$

burada P_0 - ətraf mühitin təzyiqi, *MPa*; R_h - hava üçün qaz sabiti, *C/(kq·dər)*; T_0 - ətraf mühitin temperaturudur, *K*.

3. Mühərrikin hava artıqlıq əmsalı:

$$\alpha = G_y / \left(l_o \cdot G_y \right) \tag{4}$$

burada $l_0 - 1kq$ yanacağın tam yanması üçün tələb olunan havanın nəzəri miqdarıdır, *kq/kq*. Standart dizel yanacağı üçün $l_0 = 14{,}5$, *kq/kq* qəbul olunur.

4. Mühərrikin doldurma əmsalı:

$$\eta_v = 0{,}0425 \cdot G_h / \left(i \cdot D^2 \cdot S \cdot \rho_h \cdot n \right), \tag{6}$$

burada *i* – silindrlərin sayı; *D* – silindrin diametri, *m*; *S*-porşenin gedişi, *m*; *n* – mühərrkin dövrlər sayıdır, *dəq*$^{-1}$.

5. Mühərrikin effektiv gücü (Ne) baş paylayıcı şitə görə təyin edilir (*KVt*-la).

6. Mühərrikin xüsusi effektiv yanacaq sərfi (g_e) aşağıdakı ifadə ilə hesablanır:

$$g_e = \frac{G_y}{N_e}, \quad kq/(kVt \cdot saat) \tag{7}$$

7. Mühərrikin orta effektiv təzyiqi (*Pe*) aşağıdakı kimi təyin edilir:

$$P_e = \frac{30 \cdot \tau \cdot N_e}{V_s \cdot i \cdot n},\ MPa \tag{8}$$

burada $\tau=4$- mühərrikin takt əmsalı; Vs= 1,583 dm^3- silindirlərin işçi həcmidir.

8. Xüsusi effektiv yanacaq sərfi:

$$g_e = 1000 \cdot G_y / N_e,\ \ q/(kVt \cdot saat) \tag{9}$$

9. Xüsusi indikator yanacaq sərfi:

$$g_i = 1000 \cdot G_y / N_i,\ q/(kVt \cdot saat) \tag{10}$$

Nəticə. 1**.** 6Ч 12/14 markalı köməkçi gəmi dizelinin bazasında qurulmuş sınaq stendi müxtəlif istismar parametrlərinin mühərrikin göstəricilərinə təsirini aydınlaşdırmaq məqsədi ilə aparılan tədqiqat işlərini yerinə yetirməyə imkan verir; 2**.** Təklif olunmuş hesablama metodikasına əsasən sınaq zamanı aparılan ölçmələrə görə mühərrikin əsas göstəricilərini təyin etmək mümkündür; 3**.**Bu qurğudan və hesablama metodikasından istifadə edərək tədris prosesində müvafiq fənlərə aid laboratoriya işlərini yerinə yetirmək olar.

Ədəbiyyat

1. Дизели ряда 6Ч12/14 и дизель-генераторы. М.: Машиностроение, 1973, 336 с.
2. Исмаилов А. Ш. Исследование рабочего процесса дизеля с ПАРСС восстанавливающий объем камера сгорания в конце выпуска в начале наполнения. Дис….канд. тех. наук, Баку, 1990, 187 с.

Tövsiyə edib: t.ü.f.d., dos. ***A.Ş.İsmayılov***

GƏMİÇİLİKDƏ TƏBİƏT ELMLƏRİ PROBLEMLƏRİ

УДК:678.017.620.17

ОБРАЗОВАНИЕ И РАССАСЫВАНИЕ ЗАРЯДОВ В КИНЕТИКЕ ЭЛЕКТРИЧЕСКОГО РАЗРУШЕНИЯ ПОЛИМЕРНЫХ КОМПОЗИЦИЙ

Алиева И.К.

Азербайджанская Государственная Морская Академия
Az 1000, г Баку, ул. З.Алиевой, 18
E-mail: iradealiyevakerim@gmail.com

Xülasə. *Müxtəlif molekulyar üstlü quruluşa malik polipropilen-aşağı sıxlıqlı polietilen kompozitlərin sabit elektrik sahəsində və aralıq temperaturunda yaşama müddətinə τ_E (deşilmənin gözlənilmə zamanı) görə paylanması ölçülmüşdür. Elektrik sahəsinin fasiləli və fasiləsiz təsiri zamanı deşilməyən nümunələrin yaşama müddətləri qarşılaşdırılmışdır. Fasilə zamanı temperaturun və əks işarəli sahənin qiymətindən asılı olaraq polimer kompozitlərin (PK) elektrik möhkəmlik xassələrində müxtəlif dərəcədə regenerasiya müşahidə edilmişdir. Regenerasiya dərəcəsinə görə elektrik dagılmasına aparan yüklərin sorulma prosesinin aktivasiya enerjisi hesablanmışdır. Müəyyən edilmişdir ki, sorulma prosesinin aktivasiya enerjisi əks işarəli sahənin intensivliyinin artması ilə xətti olaraq azalır.*

Abstract. *The distribution of electrical durability in a constant electric field at moderate temperatures of low-density polypropylene-polyethylene (PP-LDPE) polymer compositions (PC) with various supra molecular structures (NMS) was measured. The activation energies of the process of effective dissolution of accumulated changes in PC leading to breakdown are determined. It is shown that the process of resorption of changes, the accumulation of which leads to breakdown, has a thermo fluctuation character, and the activation energy of this process depends on the magnitude of the strength of the opposition.*

Аннотация. *В статье анализировано измерение распределения по электрической долговечности τ_E в постоянном по знаку поле при умеренных температурах полимерных композиций (ПК) полипропилен-полиэтилен низкой плотности (ПП-ПЭНП) с различными надмолекулярными структурами (НМС). Сравнены результаты опытов с непрерывным и прерываемым действием поля на образцах, оставшихся непробитыми после выдержки в течение времени, равному среднему значению $\lg\tau_E$. В перерывах варьировались: температура (Т), напряжение поля противоположного знака ($E_{пп}$), в зависимости от чего наблюдалась различная степень регенерации электропрочностных свойств ПК. По степени регенерации определены энергия активации процесса рассасывания зарядов, накопление которых ведет к пробою. Показано, что энергия активации процесса рассасывания линейно уменьшается с повышением напряженности противополя*

Açar sözlər: *polimer kompozitlər, üst molekulyar quruluş, elektrik dağılması, dağılmanın kinetikası, sorulma prosesi, aktivasiya enerjisi*

Key words*: polymer composition, supra molecular structure, electrical destruction, kinetics of destruction, process depends, activation energy*

Ключевые слова*: полимерные композиции, надмолекулярная структура, электрическое разрушение, кинетика разрушения, процесс рассасывания, энергия активации*

Введение. Проблема электрической прочности полимерных композиционных (ПК) материалов остается важной как в научном, так и в техническом отношении. В частности, до

сих пор значительный интерес представляет выяснение природы длительной электрической прочности или кинетики электрического разрушения ПК. Кинетический характер электрического разрушения проявляется прежде всего в том, что пробой данного диэлектрика происходит при различных значениях напряженности электрического поля (Е). но за различное время (τ) действия Е, причем чем меньше Е, тем больше τ [2, 4, 8, 9]. Электрическую прочность ПК можно характеризовать долговечностью τ_E – временем ожидания пробоя при заданной величине напряженности постоянного (по знаку) электрического поля [2,9]. Наличие τ_E означает, что под действием поля в ПК идут процессы, подготавливающие диэлектрик к пробою. Отсюда следует, что процесс состоит из последовательности неких элементарных актов, время ожидания которых и определяет темпы процесса. Элементарные акты приводят к образованию локальных изменений, которые условно назовем «элементами разрушения». Накопление этих элементов за время τ_E создает условие зарождения и развития магистрального пробоя. Для случаев действия электрического поля на диэлектрики при умеренных температурах вывод о накопительном процессе согласуется с данными о возможности регенерации электрической прочности [2,10].

Постановка задачи. Детализация накопительного характера подготовки полимерных композиций к пробою, а также расчет энергии активации процесса рассасывания образовавшихся зарядов, накопление которых ведет к пробою.

